QARABAĞ AZƏRBAYCANDIR!

# Səs

№ 202 (6643) 3 noyabr 2022-ci il. Qiymәti 60 qәpik



Bu gün YAP Cәnubi Qafqazın әn güclü siyasi qüvvәsidir!

10

## Azәrbaycan vә Türkiyә Prezidentlәri arasında telefon danışığı olub

2



# Möhtәşәm tarixi Zәfәrә doğru!

4



## Leyla Əliyevanın iştirakı ilә növbәti abadlaşdırılmış hәyәtin açılışı olub



3

## Fransa Senatı bu cinayәtlәri niyә qәbul etmir?



12

## Xaricdә tәhsil alan tәlәbәlәrin diplomu niyә tәsdiqlәnmir?

5



## Vitali Arkov: "Soçi görüşü Azәrbaycanın diplomatik qәlәbәsi kimi şәrh oluna bilәr"

15

Danışıqlar Rusiya, Azәrbaycan vә Ermәnistan liderlәrinin 2020-ci il noyabrın 9-da üçtәrәfli bәyanatın imzalanmasının ikinci ildönümü әrәfәsindә, elәcә dә Qәrb ölkәlәrinin Moskvanı sıxışdırmaq üçün әn fәal cәhdlәri fonunda baş tutub.




## Apteklәrdә niyә dәrman tapılmır ?



16




14

## Xarici fondların arxasında ermәni lobbisinә bağlı strukturlar dayanır

# Ərəb Dövlətləri Liqası: Azərbaycan üçün önəmli platforma



*İlham Əliyev: "Biz Ərəb Dövlətləri Liqasının üzv dövlətlərindən olan qardaşlarımızdan yenə həmrəylik görürük, beynəlxalq təsisatlarda dəstək görürük və buna görə çox minnətdarıq"*

***Bu həftə Azərbaycanda regional və beynəlxalq miqyaslı mühüm siyasi hadisələrlə zənginliyi ilə seçilir. Belə ki, Soçi sammitindən dərhal sonra Prezident İlham Əliyev Əlcəzair Prezidenti Əbdülməcid Tebbunun dəvəti ilə Ərəb Dövlətləri Liqasının (ƏDL) sammitində iştirak edəcəyi həmin ölkəyə səfər edib.***



Belə bir gərgin gündəmin mövcudluğunun daha bir reallığı var - Azərbaycan istər bütövlükdə böyük dünya siyasətində, istərsə də ərəb ölkələri ilə regional ikitərəfli və çoxtərəfli münasibətlərdə balanslaşdırılmış xarici siyasət yürüdür, habelə bu xüsusda Prezident İlham Əliyev liderliyi faktorunun da daim diqqət mərkəzində olduğunu isbatlayır. O cümlədən, ölkəmizin Cənubi Qafqaz regionunun lider dövləti olması da sözügedən sammitin təşkilatçıları tərəfindən nəzərə alınır. Beləliklə, ən qlobal və dünyəvi əhəmiyyətli məsələlərin müzakirələrində Azərbaycanın da yerinin və rolunun diqqətə alınması artıq öz əhəmiyyətini sübut etməkdədir.

Digər tərəfdən, ƏDL-nın sammitində iştirakın əhəmiyyəti daha bir amilə söykənir, yəni bu təşkilat həm də geniş bir platformadır. Orada iştirak növbəti imkanları təqdim edir - ölkələrdə yaşanan problemlərin müştərək müzakirələrlə həll edilməsi, qarşılıqlı yardımlaşma, habelə yeni ideya və təkliflərin irəli sürülməsi və s.

Azərbaycan Prezidenti: "Fransanın Əlcəzair xalqına qarşı törətdiyi zorakılığı, kütləvi qəddarlığı dünya heç zaman unutmamalıdır"

Sammitdə çıxış edən dövlətimizin başçısı bir sıra əhəmiyyətli məqamlara toxunaraq vurğulayıb ki, Əlcəzair də zamanında ağır sınaqlardan keçib və bu ölkənin xalqına qarşı amansız soyqırımı siyasətləri törədilib. Prezident İlham Əliyev xüsusilə, əsl həqiqəti gizlədərək yalanları təbliğ edən, son vaxtlar açıq-aşkar Azərbaycan əleyhinə siyasət aparan, üstəlik Birinci və İkinci Qarabağ müharibələrində Azərbaycan xalqına qarşı qətliamlar törətmiş Ermənistana dəstək göstərən Fransanın dövlət rəhbərliyinə də ismarıc yollayıb. SİTAT: "Mən bu gün şəhidlərin xatirəsini yad etdim, Şəhidlər memorialını, eləcə də Mücahidlər Muzeyini ziyarət etdim və gördüklərim mənə çox təsir etdi. Fransanın Əlcəzair xalqına qarşı törətdiyi zorakılığı, kütləvi qəddarlığı dünya heç zaman unutmamalıdır. Fransa yüz ildən çox bir müddət ərzində Əlcəzair xalqına qarşı çox dəhşətli müharibə aparmışdır. Bu müharibə 1,5 milyon əlcəzairlinin ölümü ilə nəticələnmişdir. Bu gün biz bu faciəni anaraq gələcəkdə belə faciələrin qarşısının alınması üçün əlimizdən gələni etməliyik".

Ölkə rəhbəri: "2020-ci ilin noyabr ayında müharibə bitdikdən sonra minalar səbəbindən 260-dan çox azərbaycanlı həlak olmuş, yaxud ciddi yaralanmışdır"

Dövlətimizin rəhbəri çıxışı zamanı Ermənistanın işğalçılıq siyasətindən, bu siyasətin 44 günlük Vətən müharibəsində məhv edilməsindən, eləcə də müharibənin iki ildir ki, başa çatmasına baxmayaraq ermənilərin hələ də sülh prosesinə mane olmasından, mina və s. təxribatlarından danışıb və xatırladıb ki, bu gün həmin Ermənistana vaxtilə Əlcəzair xalqına qarşı amansızcasına qətliamlar törətmiş Fransa dəstək göstərir. Ancaq buna baxmayaraq, Azərbaycan "Böyük Qayıdış" adlanan proqramın icrasına başlayıb, üstəlik öz daxili resursları hesabına. SİTAT: "Biz bunu öz resurslarımız hesabına edirik. Əfsuslar olsun ki, beynəlxalq donor təşkilatları bizə bu işdə yardım etmirlər. Biz özümüz bunu edirik. Bu gün Mücahidlər Muzeyini ziyarət edərkən mənə məlumat verildi ki, Fransanın işğalı zamanı fransızlar 5 milyondan çox mina basdırmışdı. Bu isə mənə bizim eyni ilə üzləşdiyimiz, hazırda əziyyət çəkdiyimiz işğal zamanı Ermənistan tərəfindən bir milyondan çox minanın basdırılmasını xatırlatdı. 2020-ci ilin noyabr ayında müharibə bitdikdən sonra minalar səbəbindən 260-dan çox azərbaycanlı həlak olmuş, yaxud ciddi yaralanmışdır. Biz bu işləri özümüz görürük. Biz torpaqlarımızı özümüz bərpa edəcəyik və artıq proses gedir. Biz Ərəb Dövlətləri Liqasının üzv dövlətlərindən olan qardaşlarımızdan yenə həmrəylik görürük, beynəlxalq təsisatlarda dəstək görürük və buna görə çox minnətdarıq".

Dövlət başçısı: "Biz Ərəb Dövlətləri Liqasına üzv olan ölkələrlə ikitərəfli əməkdaşlığa da xüsusi önəm veririk"

Azərbaycan Prezidenti xatırladıb ki, o ƏDL-nın sammitində Qoşulmama Hərəkatının sədri kimi iştirak edir, lakin, eyni zamanda, ölkəmizin Ərəb Dövlətləri Liqasına üzv olan dövlətlərlə çox yaxşı münasibətlərimiz var. SİTAT: "Ərəb Dövlətləri Liqasına qardaş ölkə Azərbaycanın Prezidenti, Qoşulmama Hərəkatının Sədri olaraq mən sizi bir daha əmin etmək istəyirəm ki, biz həmrəyliyimizi, birliyimizi daha da möhkəmləndirmək üçün əlimizdən gələni edəcəyik".

"Əminəm ki, yaxın gələcəkdə də bizim əməkdaşlığımız genişlənəcək, yeni xarakter və yeni dinamika alacaq. Biz Ərəb Dövlətləri Liqasına üzv olan ölkələrlə ikitərəfli əməkdaşlığa da xüsusi önəm veririk. Biz aramızda olan qarşılıqlı dəstəyi və həmrəyliyi yüksək qiymətləndiririk", deyə Prezident İlham Əliyev qeyd edib.

Beləliklə, fakt budur ki, Azərbaycan belə bir mühüm beynəlxalq təşkilatın önəmli tədbirlərində də təmsil olunmaqla dünyaya öz mesajını göndərmək imkanını əldə edir və bu platforma eyni zamanda, yeni partnoyrların, etibarlı tərəfdaşların da cəlb olunmasına öz münbit təsirlərini göstərəcək.

**Rövşən RƏSULOV**

# Azərbaycan və Türkiyə Prezidentləri arasında telefon danışığı olub



***Noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib. Telefon söhbəti zamanı Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Soçi görüşü və imzalanmış birgə bəyanat müzakirə olunub.***

Prezident İlham Əliyev Türkiyənin mobillik sahəsində xidmət göstərən qlobal texnologiya markası "Togg"un kütləvi istehsala başlanılması münasibətilə təbriklərini çatdırıb və bunu Türkiyə sənayesinin yeni uğuru kimi dəyərləndirib.

Telefon söhbəti zamanı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin müxtəlif aspektləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# Leyla Əliyevanın iştirakı ilə növbəti abadlaşdırılmış həyətin açılışı olub

***Noyabrın 2-də İDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib. SİA xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş ağacəkmə aksiyasında iştirak edib.***







Yenilənmiş həyət Bakı şəhəri, Suraxani rayonu, Qaraçuxur qəsəbəsi, Yeni Günəşli "V" yaşayış massivi 13, 14, 14A, 15, 16, 17, 18 ünvanlarında 2232 nəfər sakinin yaşadığı 7 çoxmərtəbəli yaşayış binasını əhatə edir. "Bizim həyət" layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü mini futbol stadionu, şahmat meydançaları, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda, ərazidə çoxsaylı söhbətgah və oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü yenilənib, elektrik sistemi yenidən qurulub.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 2000-ə qədər müxtəlif cinsli ağaclar və 19000 ədəd kollar əkilib, 2600 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətraflarında 1400 ədəd adi daşsarmaşığı və digər sarmaşan birkilər əkməklə "yaşıl səddlər" (green barriers) yaradılıb.

Yaşıl səddlər adi daşsarmaşığı kimi sarmaşan, sıx bitən və havadakı zərərli toz hissəciklərini effektiv şəkildə tutub-saxlaya bilən bitki növlərindən ibarətdir. Belə səddlərin əsasən ictimai yerlərin perimetrində, müvafiq olaraq hasarlar, söhbətgahlar və binaların üzərində əkilməsi nəzərdə tutulur ki, bunlar iynəyarpaqlı, həmişəyaşıl ağaclarla və digər bitkilərlə yanaşı hava çirklənməsinin əhəmiyyətli dərəcədə azaldılmasına töhfə verəcək. "Bizim Həyət" layihəsi çərçivəsində ümumi yaşayış sahələrinin həyətlərinin abadlaşdırılmasına dair məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.







# Möhtəşəm tarixi Zəfərə doğru!

## *İki il bundan əvvəl 3 noyabr tarixində nələr baş verdi?*







***2020-ci ilin sentyabrın 27-də işğalçı Ermənistanın hərbi birləşmələrinin cəbhə xəttində törətdiyi növbəti genişmiqyaslı təxribata cavab olaraq Silahlı Qüvvələrimizin əks-hücum əməliyyatlarına başlamasından artıq bir aydan çox vaxt ötürdü. Ötən müddət ərzində şanlı Ordumuzun əks-hücum əməliyyatlarını uğurla həyata keçirməsi və torpaqlarımızın xeyli hissəsini işğalçılardan təmizləməsi bir daha təsdiqləyirdi ki, Azərbaycan Qarabağ münaqişəsinin həlli məsələsində tarixi ədalətin və beynəlxalq hüququn təmin olunmasında israrlıdır, bunu öz gücü ilə reallaşdırmaq gücündədir.***

İki il bundan əvvəl 3 noyabr tarixində Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev həmin günlərdə etdiyi çıxışlarda, beynəlxalq KİV-lərə, televiziya kanallarına verdiyi müsahibələrində Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaranan Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həlli ilə bağlı ölkəmizin ədalətli və prinsipial mövqeyini əsaslandırılmış şəkildə diqqətə çatdırırdı. Azərbaycan Qarabağ probleminə yanaşmada qəti siyasi iradə ortaya qoyarkən ölkəmizin iqtisadi qüdrəti, cəmiyyətimizin bu məsələdə vahid mövqedən çıxış etməsi, o cümlədən də Ordumuzun gücünə istinad edirdi. Sentyabrın 27-dən etibarən, genişmiqyaslı əks-hücum əməliyyatlarına başlayan Azərbaycan Ordusu xilaskarlıq missiyasını yerinə yetirərək, hər gün yeni hərbi uğurlara imza atırdı. Azərbaycan Ordusu doğma torpaqlarında vuruşur, doğma torpaqlarında şəhidlər verirdi. Şanlı qələbələr tariximizin bugünki qürur doğuran səhifələrini Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə məhz onlar yazırdılar.

### XALQIMIZIN ƏRƏNLİYİNİ, TORPAQ UĞRUNDA SAVAŞINI, BİR YUMRUQ OLARAQ BİRLƏŞMƏSİNİ YETİŞƏN NƏSİLLƏRƏ İLLƏR, QƏRİNƏLƏR DANIŞACAQ

Hər birimizin qürur duyduğumuz, ucadan-uca üç rəngli Azərbaycan bayrağı. Hər zaman vətən torpağı üzərində məğrur-məğrur, azad dalğalanan Azərbaycan bayrağına bu gün vətən torpağının hər bir yeri bürünüb. Bu bayraq müstəqilliyimizin rəmzi, bütövlüyümüzün, varlığımızın simvoludur. Uşaqdan böyüyə qədər sanki hər kəs özünə bayraqdan don biçib. Bu bayrağı belə qüdrətli edən, dalğalandıran Azərbaycan xalqının Böyük Lideri, Prezidenti var.

Bu gün arıq Azərbaycana yeni bir günəş doğdu. 30 ilə yaxın bir zamanda insanların keçirdiyi o iztirab, qəm-kədər bir anın içində sevincə çevrildi. Sanki təbiət başqa bir rəngə boyandı, torpaqlarımız dərindən nəfəs aldı, donmuş çöhrələr canlandı, torpağımız qələbə sevincini yaşadı. Özü də necə. Azərbaycan Prezidenti Ali baş Komandanın müdrik siyasəti nəticəsində bu sabah günəşin üzündən bütün duman, çiskin çəkildi. Səmamız aydın göründü -məqsədimiz kimi. Müzəffər Azərbaycan ordusunun və onun Sərkərdəsi Cənab İlham Əliyev tariximizə yeni bir gün yazdı. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti tarixdə yeni gün oldu. "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır". Bu müraciət xalqın tarixində yeni bir günün başlanmasıdır. Bu elə bir gündür ki, zaman-zaman Azərbaycan xalqını ərənliyini, torpaq uğrunda savaşını, böyüklüyünü, bütövlüyünü, lazım gələndə bir yumruq olaraq birləşməsini yetişən nəsillərə illər, qərinələr, əsrlər sonra belə danışmış olacaq. Azərbaycanın qələbə sorağıdır bu. Azərbaycan ordusu bu gün Vətən Müharibəsində öz gücünü, nəyə qadir olduğunu göstərdi. Rəşadətli ordumuz bir-birinin ardınca düşmənə ağır zərbələr vuraraq, təcavüzkar ölkənin siyasi-hərbi rəhbərliyini çıxılmaz vəziyyətə saldı.

44 gün davam edən müharibədə vətən torpağının erməni işğalçılarının təcavüzkar siyasəti nəticəsində işğal altında olan torpaqlarımız işğalçılardan azad olundu. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində qeyd etdiyi kimi, "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır". Bu müraciət xalqın tarixində yeni bir səhifədir.

Azərbaycan xalqı, ordumuz Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və Vətən Müharibəsində öz gücünü, nəyə qadir olduğunu erməniyə, eləcə də bütün dünyaya göstərə bildi. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də, Prezident İlham Əliyev qətiyyətini, siyasi iradəsini nümayiş etdirdi, prinsipial mövqeyindən dönmədi.

### "BU GÜN BİZ BİR DAHA BÜTÜN DÜNYAYA SÜBUT EDİRİK Kİ, BİZ BÖYÜK XALQIQ, BİZ MƏĞRUR XALQIQ!"

Bu müharibədə Azərbaycan mülki insanlarla müharibə aparmadı və Ermənistandan fərqli olaraq etnik təmizləmə həyata keçirmək niyyətində deyildi. Amma Ermənistan tərəfindən mülki əhaliyə dəfələrlə atəş açıldı. Bərdə, Gəncə, Tərtər kimi şəhərlərimiz ziyan çəkdi. Mənfur düşmən tərəfindən 94 mülki şəxs qətlə yetirildi. 400-dən çox mülki şəxs yaralandı. Azərbaycan ordusu, əsgəri isə intiqamını hər zaman döyüş meydanında aldı. Tarixin bu günü Ermənistan Azərbaycanın Tərtər rayonunun dinc sakinlərinə qarşı fosforlu mərmilərdən istifadə etməyə davam edirdi Ermənistanın bu silahlardan istifadə etməsində əsas məqsəd Azərbaycan Silahlı Qüvvələrinə və mülki insanlarına zərbə vurmaq idi. Eyni zamanda, Ermənistan silahlı qüvvələrinin bölmələri yenidən Ağdam və Ağcabədi rayonlarının kəndlərindəki mülki infrastrukturu artilleriya atəşinə tuturdu.

Azərbaycan Silahlı Qüvvələrinin hədəfində isə yalnız işğalçı ölkənin hərbi birləşmələri idi. Cəbrayıl, Füzuli, Zəngilan və digər şəhər, qəsəbə və kəndlərin alınması Azərbaycan xalqına qələbə sevincini yaşadırdı. Noyabrın 8-də rəşadətli ordumuzun Şuşaya Azərbaycan bayrağını sancması Ermənistanın siyasi-hərbi rəhbərliyinə ağır bir zərbə oldu: " 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"- deyən Azərbaycan Prezident Cənab İlham Əliyev onu da bildirdi ki, bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! " Şuşanın alınması Ermənistanı tam tərk-silah etdi, onun bütün manevr imkanları çökdü. Düşmənin ağ bayraq qaldırmaqdan başqa çıxış yolu yox idi. Noyabrın 9-da Prezident İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad edildiyi barədə ölkə ictimaiyyətini məlumatlandırdı." Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik",- deyə bildirən Cənab Prezident onu da qeyd etmişdi ki, torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir.

### MÜNAQİŞƏ BAŞA ÇATMAQLA YANAŞI, BÖLGƏDƏ YENİ REALLIQLAR YARANDI

Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi. Bəyanatda göstərilirdi ki, Ermənistan öz üzərinə öhdəlik götürür ki, qarşıdan gələn 20 gün ərzində Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxaracaq: Bəyanatdan da göründüyü kimi, işğalçı qüvvələr Kəlbəcər rayonunu noyabrın 15-dək təhvil verməli idi. Amma Ermənistan tərəfi ordunun və qanunsuz olaraq yerləşdirilmiş insanların rayondan çıxarılması üçün əlavə 10 gün vaxt istədi. Azərbaycan dövləti, Prezident İlham Əliyev həmişə olduğu kimi, humanizm prinsiplərinə böyük üstünlük vermiş oldu.

Azərbaycanın qazandığı Zəfərdə dövlət-xalq birliyi, Müzəffər Ali Baş Komandana və Azərbaycan Ordusuna olan inam, son 30 ildə ölkəmizin keçdiyi inkişaf yolu əsas rol oynadı. 44 gün ərzində, sadəcə, müharibə meydanında deyil, həmçinin diplomatik cəbhədə də mübarizə aparan Azərbaycan hər iki döyüşdən qalib çıxdı. Beləliklə, 30 ilə yaxın davam edən münaqişə başa çatmaqla yanaşı, bölgədə yeni reallıqlar yarandı, ərazi bütövlüyümüz birmənalı olaraq bərpa edildi.

**ZÜMRÜD BAYRAMOVA**

# 8 NOYABR “8 MAY QARA TARİX”İ YER ÜZÜNDƏN SİLDİ!




***Bəli, bu gün xalqımız Azərbaycan Prezidenti, Ali Baş Komandan Cənab İlham Əliyevin qətiyyəti sayəsində çoxəsrlik tariximizin ikinci ildir ki, Zəfər Gününü qürurla qeyd edir. 8 noyabr 2020-ci il - Qarabağa qovuşduğumuz tarixinin ikinci ilini - Böyük Qələbə, Şanlı tariximizə daxil olan Zəfər gününü, Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə NİDA! qoyduğu günü qeyd edir.***

## *İLHAM ƏLİYEV: "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik"*

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin Qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi, düşmən üzərində tarixi Zəfər çaldı. Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün etdi! Ermənistanın hərbi kapitulyasiyasına nail olduq! Bəşəriyyətə haqqın, ədalətin böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin - Azərbaycanın var olduğunu sübut etdik. Bu ədaləti 44 gün ərzində yazan Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları, bütün Türkiyə xalqı bir yumruq kimi birləşərək təkcə Ermənistanın yox, bütövlükdə haqsız güclərin üstünə getdi və sübut etdi ki, haqq yolunda, ədalətin, ərazi bütövlüyümüzün bərpası uğurunda vuruşuruq. 10 noyabrda Müzəffər Azərbaycan Ordusu cəmi 44 günə hərbi yolla 30 il düşmən torpağında inləyən vətən torpaqlarını işğaldan azad etdi. 44 gündə müzəffər Azərbaycan Ordusu dünyaya sübut etdi ki, döyüş meydanında zəfəri tanklarla, toplarla deyil, ağılla, zəkayla və bir də insan zehninin ən son nailiyyəti olan PUA-larla qazanmaq olar.

### ŞUŞANIN İŞĞALDAN AZAD EDİLMƏSİ BİZİM ŞANLI QƏLƏBƏMİZDİR

Prezident, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində bildirdi ki, Şuşanın azad edilməsi dünya hərb tarixində xüsusi yer tutacaq: ”Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq. Çünki bu əməliyyatı bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək yalnız yüngül silahlarla silahlanmış şəkildə azad ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir”. Bəli, Azərbaycan əsgəri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümunəsi göstərdi. Düşmənin 30 il ərzində qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, müzəffər ordumuzun tətbiq etdiyi savaş strategiyası müasir hərb tarixinə yeni örnək oldu. Belə vəziyyətdə Ermənistanın qarşısında yalnız iki yoldan birini seçmək qalırdı. Ya Ermənistan ordusunun son tör-töküntüləri də döyüş meydanında son nəfərinə qədər məhv ediləcəkdi, ya da ”ağ bayraq” qaldırıb, biabırçı hərbi məğlubiyyətini etiraf edəcəkdi. Paşinyan hakimiyyəti reallığı nəhayət ki, qəbul etdi və noyabrın 10-da Ermənistan ”ağ bayraq” qaldırdı, kapitulyasiya bəyannaməsini imzaladı.

### AZƏRBAYCAN ORDUSU NƏİNKİ DÜŞMƏNİ DİZ ÇÖKDÜRƏRƏK ONLARIN 30 İL QEYD ETDİKLƏRİ İŞĞAL ”BAYRAM”LARINI - 8 MAY GÜNÜNÜ TARİXDƏN SİLDİ

Bəli, 30 il gözlədiyimiz o möhtəşəm tarixə şahidlik etmək zamanı yetişdi! Azərbaycan ordusu nəinki düşməni diz çökdürərək onların 30 il qeyd etdikləri işğal ”bayram”larını - 8 may gününü tarixdən sildi, Müzəffər Ali Baş Komandan əsl sərkərdəlik, siyasi iradə nümayiş etdirərək bizi həsrətində olduğumuz yurd yerlərimizə, tarixi ərazilərimizə qovuşdurdu.30 ildən sonra ikinci dəfədir ki, 8 may tarixini Şuşanın işğal edildiyi gün kimi yox, işğaldan azad olunan, tikilən, qurulan və Azərbaycanın mədəniyyət paytaxtı kimi qarşılayırıq. Çünki Azərbaycan hərbçiləri bir gecədə Şuşa qalasını, sıldırımlı qayaları, aşılmaz dağları fəth etməklə ordumuzun hansı potensialda olduğunu, Vətən, torpaq anlayışının qəhrəman əsgərlərimiz, xalqımız üçün nə qədər böyük məna kəsb etdiyini bir daha sübut etmiş oldu. Təsadüfi deyil ki, Şuşaya qədər işğaldan azad edilən ərazilərdən qaçan, itkilər verərək geri çəkilən erməni hərbçiləri haqqında yaradılan mif Şuşada birdəfəlik darmadağın edildi. Və 1992-ci il 8 mayda itirdiyimiz Şuşa 30 il sonra 2020-ci il 8 noyabrda Ali Baş Komandanımızın rəhbərliyi hər günü bir tarixi qələbə olan 44 gün davam edən İkinci Vətən Müharibəsində düşmənə ”Dəmir yumruğun” zərbəsi ilə qürur yerimiz - Şuşamız azad edildi! Azərbaycanın 28 illik ŞUŞA yarası sağaldı! Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır. Və şanlı Qələbəmizin, zəfərimizin günü olan 8 noyabr 2020-ci il - Qarabağa qovuşduğumuz tarix, şanlı tariximizə daxil olan Zəfər günü, Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə ”NİDA!” qoyduğu gündür. Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox. Bəli, 8 mayda itirdiyimiz Şuşa 30 il sonra 8 noyabrda Ali Baş Komandanımızın rəhbərliyi ilə geri qaytarıldı, 8 noyabr 8 may qara tarixi yer üzündən sildi və Şuşa əsl sahiblərinə, Qarabağımıza qovuşduq! Sonda Prezident İlham Əliyevin noyabrın 8-də Şuşanın azad olunduğu gün səsləndirdiyi fikirlər bu tarixi şəhərin onun üçün necə əhəmiyyəti olmasını göstərirdi. Ali Baş Komandan Şəhidlər xiyabanından xalqa müraciətində Şuşanın azad olunması müjdəsini verərək ulu öndərin vəsiyyətinin yerinə yetirməsini qürurla qeyd etdi: ”Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!”.Bəli, bu gün əziz Şuşamız azaddır. Orada şanlı bayrağımız qürurla dalğalanır. Xalq olaraq fəxrlə artıq ikinci ildir ki, 30 il sonra 8 noyabr Zəfər Günümüzü qürurla, sevinclə qeyd edirik. Bir daha Zəfər Günün mübarək, Azərbaycan xalqı, bütün türk dünyası! Zəfər Günün mübarək, Azərbaycan! Qarabağ Azərbaycandır!

**RƏFİQƏ KAMALQIZI**

# Xaricdə təhsil alan tələbələrin diplomu niyə təsdiqlənmir?

***“Xaricdə təhsil alan bəzi tələbələrimizin diplomlarının Elm və Təhsil Nazirliyi tərəfindən təsdiqlənməməsi qərarı ilə razılaşmıram. Amma həmin tələbələr məhkəmə orqanlarına müraciət edərək şikayətlərini bildirməlidirlər”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Asif Cahangirov deyib:***

Onun sözlərinə görə, həmin tələbələr qanunvericiliyə uyğun olaraq öz mövqelərini bildiriblər, lakin məhkəmələr çox zaman Təhsil Nazirliyinin mövqeyini dəstəkləyən qərar çıxarıblar. Elə məsələlər var ki, məsələn orada tələbənin təhsil müddətində pandemiya səbəbindən oxuduğu ölkəyə gediş-gəlişin olmadığını da nəzərə almaq olardı. Pandemiya zamanı lazımı təsdiqləyici sənədlər olduğu halda, bunu həmin tələbənin nöqsanı kimi qəbul etmək olmaz. Amma bunu da nəzərə almaq lazımdır ki, Ukraynada təhsil alan tələbələrimiz münaqişə səbəbindən təhsillərini dondururaq və ya yarımçıq qoyaraq ölkəyə gəlməyə məcbur olublar və nəticədə təhsilləri yarımçıq qalıb. Türkiyədə də təhsil alan tələbələrin diplomlarında problemlər yaranır. Türkiyədə keçərli olan diplomu burada Təhsil Nazirliyi təsdiqləmir, həmin tələbənin 4 ili və ya magistr təhsili alan tələbənin 2 ili boş-boşuna gedir. Bir də var ki, xaricdə qiyabi təhsil alan tələbələr onların bəzilərini buraya aid edə bilərik ki, ildə ən azı smestr zamanı həmin ölkəyə səfər etməli olan tələbə səfər etmir və sonda diplomu müəyyən yollarla alaraq burada təsdiqlədmək istədikdə problem yaşayır. Bu zaman da problemi Təhsil Nazirliyində yox, elə həmin şəxsin özündə axtarmaq lazımdır”.



***Ziya Hikmət oğlu***

# Yeni Azərbaycan Partiyası- 30

**Bu gün özündə 750 mindən çox insanı birləşdirən partiyamızın Cənab İlham Əliyevin rəhbərliyi ilə gələcəkdə daha böyük qələbələr qazanacağı şübhəsizdir**

Ölkəmizin siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının yaranması və təşəkkül tapması milli tariximizdə görkəmli yer tutan Ulu Öndər Heydər Əliyevin şərəfli adı ilə bağlıdır. Yeni Azərbaycan Partiyasının tarixi Azərbaycanın müstəqillik dövrünün tarixi ilə, demək olar ki, üst-üstə düşür. Azərbaycan özünün müstəqilliyini 1991-ci il, oktyabrın 18-də bəyan edib. YAP isə 1992-ci il, noyabrın 21-də yaradılıb. Həmin illər Azərbaycan üçün ən ağır və məsuliyyətli dövr idi. Həmin vaxtlar dövlət müstəqilliyin qorunub saxlanması üçün qətiyyətli bir şəxsin ölkə rəhbərliyinə gətirilməsi zəruriliyi yaranmışdı. Bu mənada, YAP-ın yaranması tarixi zərurət kimi qeyd olunmalıdır. Yəni, YAP-ın yaranmasını tarixi zərurət və Azərbaycan xalqının taleyi diktə edirdi. 1992-ci ildə xaos, anarxiya vəziyyətində olan bir ölkəyə xalqı bu çətin vəziyyətdən çıxarmaq bacarığı olan güclü bir LİDERİN ölkə rəhbərliyə gətirilməsi əsas şərt idi. Azərbaycan xalqı bu məsələdə Ulu Öndər Heydər Əliyev fenomeninin üzərində dayandı. Çünki xalq nicat yolunu yalnız Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışında gördü. Elə həmin vaxtlar 91 nəfər Azərbaycan ziyalısı Naxçıvana, Ulu Öndər Heydər Əliyevə müraciət ünvanlamışdı. Bu müraciət bütövlükdə Azərbaycan xalqının çağırış ifadəsi idi. Həmin tarixi müraciətdə Heydər Əliyevin yeni yaradılacaq partiyaya - Yeni Azərbaycan Partiyasına rəhbərlik etməsi vurğulanırdı və bu, həmin dövr üçün heç də asan bir məsələ deyildi...

**Dövlətçilik məfkurəsini gücləndirmək, milli dövlətçilik ideologiyasını işləyib hazırlamaq və onu reallaşdırmaq həmin dövrlər üçün güclü siyasi iradə, bacarıq tələb edirdi**

Torpaqlarımızın erməni təcavüzünə uğradığı, xalqın rifah halının günü-gündən pisləşməsi və s. amillər qarşıda nəhəng işlərin görüləcəyi tələblərini artırmaqda idi. Məhz Ulu Öndər Heydər Əliyev də bilirdi ki, o bu müraciətə müsbət cavab verdikdən sonra onun qarşısında çətin anlar, ağır iş prosesi dayanacaq. Ancaq o, daha sonralar vurğuladığı kimi, canını Azərbaycan dövləti və Azərbaycan xalqı üçün fəda etməyə hazır idi və bu müraciətə səssiz qala bilməzdi. Beləliklə, Ümummilli Liderin qarşısında dayanan mühüm məsələlər bunlardan ibarət idi - Azərbaycanda köklü islahatlar aparılmalı, xalqın pozulmuş, tapdalanmış hüquqları bərpa edilməli və güclü vətəndaş cəmiyyəti qurulmalı, ölkəmiz beynəlxalq aləmə çıxış yolunu tapmalı və iqtisadiyyatını gücləndirməklə qüdrətli ordu yaratmalı idi. Eyni zamanda, qeyd edilənlərlə paralel olaraq bütün sahələrin inkişafı istiqamətinə çox ciddi addımlar atılmalı idi. Ən əsası isə dövlətçiliyin bərpası və qorunub saxlanması yükünü öhdəsinə götürməyi bacaran qətiyyətli bir fenomenal şəxsiyyətə böyük ehtiyac var idi. Eyni zamanda, dövlətçilik məfkurəsini gücləndirmək, milli dövlətçilik ideologiyasını işləyib hazırlamaq və onu reallaşdırmaq həmin dövrlər üçün güclü siyasi iradə, bacarıq tələb edirdi. Bunların öhdəsindən layiqincə gələ biləcək şəxs Heydər Əliyev ola bilərdi! Ona görə də 1992-ci ilin noyabrın 21-də YAP-ın təsis konfransının keçirilməsi təsadüfi hadisə deyildi, bu xalqın istəyi ilə yaradılan bir siyasi partiya idi. Söz yox ki, həmin dövrlərdə YAP-ın yaradılması üçün çox manеələr törədilirdi. Lakin xalqın təkidli tələbi bütün bu manеələri aradan qaldırdı və bu da asan proses deyildi...

# YAP 30 il - xalq-dövlət birliyinin zəfər partiyası!



*Aqil MƏMMƏDOV, Milli Məclisin deputatı*

**Azərbaycan xalqı bu seçimi ilə artıq özünün nicat yoluna qədəm qoydu**

Misal üçün, həmin vaxtlar xalqımızın dahi oğlu, tanınmış dövlət xadimi Ümummilli Lider Heydər Əliyev o dövrdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri idi. Ulu Öndər ziyalıların müraciətini qəbul etsə də, onun Bakıya gəlməsinə o zamankı səriştəsiz şəxslərin rəhbərlik etdiyi hakimiyyətin manеələr yaratması ucbatından, partiyanın yaradılmasını istəyən insanların bir hissəsi Naxçıvana gedərək, partiyanın təsis konfransını orada keçirməyə nail oldular. Yenə də xalqın Heydər Əliyevə olan inamını bəzi qaragüruhçu qüvvələr sarsıda bilmədilər. Naxçıvanda yaradılan YAP-ın təsis konfransında Ulu Öndər Heydər Əliyev yekdilliklə yeni yaradılan partiyanın Sədri seçildi. Deyərdim ki, Azərbaycan xalqı bu seçimi ilə artıq özünün nicat yoluna qədəm qoydu. Çünki qısa zaman kəsiyində YAP siyasi hakimiyyətə gəldi. Bunun əsas qayəsi inam və etibar idi. Biz sual edə bilərik ki, bəs partiyanın yaranması ilk olaraq hansı məqamları özündə ehtiva etdi? YAP öz təsisi ilə ilkin olaraq Azərbaycanın ictimai-siyasi fikir, siyasi fəaliyyət və mübarizələr tarixinə yeni bir keyfiyyət halı gətirdi. Qarşıda ölkəni çətin, böhran vəziyyətindən çıxarmaq kimi ciddi məqsəd dayanırdı.Başqa tərəfdən, YAP öz yaranışı ilə Azərbaycanın çağdaş dövr tarixində ilk konstruktiv müxalifət partiyası nümunəsini də meydana çıxarmış oldu. Partiyamızın bu gün Cənubi Qafqazdakı, eləcə də postsovet məkanındakı siyasi nüfuzunun, siyasi gücünün və populyarlığının bir səbəbi də budur.

**YAP-ın keçdiyi yola nəzər salanda, görürük ki, inanılmaz dərəcədəki inkişaf hansı keşməkeşlərdən keçib**

Dahi şəxsiyyət Heydər Əliyev 1993-cü il prezident seçkilərdə xalqın səsini qazandı. Bundan sonra Azərbaycan xalqı artıq tam əmin oldu ki, hakimiyyət sükanı etibarlı əllərdədir. Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışı və qətiyyətli addımları nəticəsində çox keçmədi ki, ölkə böhran vəziyyətindən çıxarıldı. Bütün sahələrin inkişafına xüsusi diqqət yetirildi. Xalqın sabahına hesablanmış mütərəqqi siyasət yeridildi. YAP Azərbaycan dövlətçiliyinin, onun müstəqilliyinin, bu gününün və sabahının qarantı deməkdir. Ona görə də, bu gün Yeni Azərbaycan Partiyasının keçdiyi yola nəzər salanda, görürük ki, inanılmaz dərəcədəki inkişaf hansı keşməkeşlərdən keçib. Bu, bir daha onu deməyə əsas verir ki, xalq öz seçimində yanılmadı. Xalqın düzgün seçimi yeni və qüdrətli Azərbaycanın yaranması ilə nəticələndi. Ona görə ki, YAP üzərinə düşən missiyanı uğurla həyata keçirdi və bu gün də bu inkişaf göz önündədir.Bu gün Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqının firavan gələcəyinə hesablanan mütərəqqi siyasi kursu ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla, mütəşəkkil qaydada və ali idarəçilik reallıqları, həmçinin praqmatik siyasət faktorları həyata keçirilir. Belə bir siyasi kursu davam etdirmək isə heç də asan məsələ deyil. Çünki burada Heydər Əliyev ideologiyası, Ulu Öndər məfkurəsi mövcuddur. Bu ideologiya, məfkurə və dövlətçilik fəlsəfəsi isə kifayət qədər zəngindir. Partiyamızın Sədri, möhtərəm İlham Əliyev cənabları xalqımıza və dövlətimizə rəhbərlik etməyə başladığı gündən belə bir siyasi kursu layiqincə davam etdirməyin həm də nə qədər böyük məsuliyyət daşıdığını bilirdi. Artıq bizlər bu gün birmənalı şəkildə və əminliklə, həm də dəfələrlə vurğulayırıq - ölkə Prezidenti İlham Əliyev bu kursun ən layiqli davamçısıdır. YAP-ın da ümumxalq partiyasına çevrilməsi faktı bu mükəmməl dəyərə söykənir.

Əlbəttə, bunun başlıca səbəblərindən biri də birbaşa dövlət başçımız, partiyamızın Sədri İlham Əliyevin xalq arasındkı böyük nüfuzudur. Onun adi vətəndaşlarla səmimi görüşlərindən tutmuş həm də hər bir azərbaycanlının Prezidenti olması faktını əməli şəkildə isbatlaması bu cür nəticə hasil etməyə zəminlər yaradır. Daha dəqiq desək, partiyamızın Sədrinin şəxsi keyfiyyəti, Onun Heydər Əliyev ideyalarına sonsuz sədaqəti, Azərbaycan dövlətinin siyasi və iqtisadi nüfuzunun artmasına yönələn fəaliyyəti partiyamızın xalq qarşısındakı hörmət və inamını artırır. Bizi sevindirən, fərəhləndirən amil də budur ki, artıq hər bir YAP üzvü bilavasitə Heydər Əliyev ideyalarına, bu ideyaların inkiaf etməsinə sədaqətlə xidmət edir. Bu sədaqət hazırda Prezident İlham Əliyev siyasəti kontekstində bütün məziyyətləri ilə sübuta yetirilməkdədir.

**VII qurultaydan irəli gələn tələblər uğurla həyata keçirilir**

Bildiyiniz kimi, bütün dövlətlərdə hakimiyyətdə olan siyasi partiyaların qəbul etdiyi qərarlar ölkənin siyasi həyatına birbaşa təsir edir. Bu baxımdan, Yeni Azərbaycan Partiyasının keçirilən növbəti - VII qurultayı təbii olaraq ölkə ictimaiyyətinin diqqət mərkəzində idi. Həmçinin Vətən müharibəsindəki şanlı Zəfərdən sonra və ölkədə aparılan islahatlar fonunda qurultayın baş tutması paralellik təşkil etməklə ölkənin gələcək inkişafı baxımından da önəmli hadisə sayılırdı. Hakim partiyanın növbəti ali toplantısı vacib qərarların qəbul edilməsi ilə yadda qaldı - Yeni Azərbaycan Partiyasının yeni Nizamnaməsi qəbul olundu, 40 nəfərdən ibarət tərkibdə İdarə Heyəti seçildi, 6 siyasi partiyanın YAP-a qoşulmasına dair qərar qəbul edildi. Bununla da ölkənin siyasi həyatında tamamilə yeni bir strategiyanın əsası qoyuldu. Ona görə də deyə bilərik ki, bu qurultay demokratik ənənələrin inkişafına ciddi töhfə verəcək. Prezident, Yeni Azərbycan Partiyasının Sədri İlham Əliyev daim özünün geniş, dərin məzmunlu və proqram xarakterli çıxışlarında vurğulayır ki, əldə edilən uğurlarla kifayətlənmək olmaz. Yalnız növbəti uğurlara və qələbələrə doğru inamla addımlamaq hər birimizin borcudur. Bu gün sıralarında 760 580 insanı birləşdirən YAP-ın fəaliyyəti, ideyaları, apardığı siyasət də əlbəttə ki, göz önündədir. Yaranmasının 30 illiyi tamam olacaq partiya ötən müddət ərzində uğurla inkişaf edib və bütün seçkilərdə - həm parlament, həm prezident seçkilərində böyük səs çoxluğu ilə qalib gəlib. Bu gün Azərbaycanda YAP-a rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Prezidentin də söylədiyi kimi, YAP sözün əsl mənasında ümumxalq partiyasına çevrilib. Cəmiyyətimizin bütün təbəqələri hakim partiyada birləşib. YAP nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi təşkilatıdır. Partiyanın böyük ənənələri var!

Beləliklə, biz həm də onu deyə bilərik ki, bu gün Prezident İlham Əliyev cənablarının həyata keçirdiyi mütərəqqi islahatlar xalq tərəfindən yüksək qiymətləndirilir. Bu da onu deməyə əsas verir ki, Azərbaycanda bundan sonra da uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq. Çünki görülən işlər və Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli, prinsipial, uzaqgörən siyasət yeganə düzgün siyasətdir. Və bu gün özündə 750 mindən çox insanı birləşdirən partiyamızın cənab İlham Əliyevin rəhbərliyi ilə gələcəkdə daha böyük qələbələr qazanacağı şübhəsizdir. Partiyamız Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın daha da inkişaf edəcəyinə inanır və bu yolda özünün töhfələrini verəcəkdir.

**Ölkə Prezidenti Azərbaycan xalqına müraciətində də dediyi kimi, ATA vəsiyyətini yerinə yetirdi**

Daha bir mühüm məqam: bizlər Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu, hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının yaranmasının 30 illiyini Vətən müharibəsinin şanlı Zəfərinin ikinci ilinin qeyd olunduğu bir tarixi ərəfələrdə qeyd edirik.Təbii ki, YAP-ın təmsilçiləri olaraq belə bir mötəbər təşkilatda olmağımızla qürur duyuruq və eyni zamanda, Yeni Azərbaycan Partiyasının yaranmasının 30-cu ildönümünün qədirbilən xalqımızın tarixində çox əlamətdar bir dövrə təsadüf etdiyini daim xatırlayır, bizdən sonra gələn nəsillərə onun bir sıra mühüm faktorlarını aşılayırıq. Bu gün məhz Azərbaycan Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyev cənablarının rəhbərliyi ilə 44 gün ərzində "Dəmir yumruq" əməliyyatını icra edən qüdrətli Ordumuzun rəşadətli əsgər və zabitlərinin qəhrəmanlıqları xalqımızın 30 illik torpaq həsrətinə son qoyuldu. Digər tərəfdən, bu qalibin məğlub üzərindəki bir zəfərdir - Ali Baş Komandanımız, Prezident cənab İlham Əliyevin diplomatik və qətiyyətli siyasətinin, güclü Ordumuzun, rəşadətli əsgər və zabitlərimizin zəfəridir. Məhz bu zəfərin qazanılmasında Yeni Azərbaycan Partiyasının yeri və rolunun olması da təşkilatımızın şərəf tarixinə silinməz qalibiyyət imzasını atmış oldu. Bu gün Müzəffər Ali Baş Komandanımız, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev cənabları özünün mütərəqqi diplomatik siyasəti ilə həm siyasi meydanın, həm də döyüş meydanının qalibidir. Azərbaycan xalqı öz Liderinin - Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev böyük fədakarlıqla və qətiyyətlə YAP-ın qurucusu Ulu Öndər Heydər Əliyev siyasi kursunu uğurla davam etdirərək Azərbaycan xalqına müraciətində də dediyi kimi, ATA vəsiyyətini yerinə yetirdi, son 19 ildə həyata keçirdiyi Güclü Dövlət, Güclü Ordu strategiyası nəticəsində işğalda olan torpaqlarımızı azad etdi, xalqın inamını özünə qaytardı. Və ən nəhayət - əldə olunan qələbə həm də dövlət-xalq-ordu birliyinin bəhrəsidir. Bu baxımdan biz əminliklə vurğulayırıq ki, Yeni Azərbaycan Partiyası da məhz xalqın birliyinin partiyasıdır!

## Yeni Azərbaycan Partiyası- 30

# YAP- dünənin, bu günün və gələcəyin partiyası!

*Yeni Azərbaycan Partiyasının təsis olunmasının 30 illiyinə həsr olunmuş tədbirlər keçirilib*

### Xəzər





Noyabrın 2-də "Zirə Eko Park" Mədəniyyət mərkəzinin konfrans zalında Yeni Azərbaycan Partiyasının təsis olunmasının 30 illiyinə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə ediblər. Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının yaranması və inkişaf tarixindən bəhs edən videoçarx nümayiş olunub. Tədbirdə çıxış edən YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov bildirib ki, Azərbaycanın tarixinə unudulmaz və möhtəşəm bir gün kimi daxil olan 1992-ci il 21 noyabr tarixi ölkəmizin ictimai-siyasi həyatında yeni başlanğıc nöqtəsi sayılır: "Ümummilli lider Heydər Əliyevin rəhbərliyi və ideyaları əsasında qurulan Yeni Azərbaycan Partiyasının 30 illik inkişaf tarixi göstərdi ki, partiyanı yaradanlar, bu partiyanın təməl daşını qoyanlar yeni müstəqil dövlətimizin siyasi-iqtisadi, sosial-mədəni inkişafının istiqamətini müəyyən etməklə öz seçimlərində yanılmayıblar. Bu gün də Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlar qazanır. Partiya ölkənin bugünkü sürətli inkişafında, respublikanın beynəlxalq nüfuzunun artmasında bütün sahələrdə əldə olunan tərəqqidə xüsusi rola malikdir".

YAP Veteranlar şurasının üzvü, yazıçı Zahid Xəlilov vurğulayıb ki, xalqı arxasınca aparmağa qadir, insanlarda inam yarada biləcək siyasi partiyanın təsis olunmasına və həmin təşkilata dövlət idarəçiliyində böyük təcrübəsi olan şəxsiyyətin rəhbərlik etməsinə böyük ehtiyac yarandığı bir dövrdə Ulu Öndərin yüksək nüfuzu, xalqın ona böyük inamı, etimadı və davamlı dəstəyi Yeni Azərbaycan Partiyasının ardıcıl uğurlar qazanmasını təmin edən əsas amil oldu.

Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov müstəqil Azərbaycan tarixində özünəməxsus yer tutan Yeni Azərbaycan Partiyasının uğurlarının təməlində məhz ulu öndər Heydər Əliyevin siyasi kursunun olduğunu bildirib. Vurğulayıb ki, Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da böyük nailiyyətlərə imza atacaq.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rauf Əliyev Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbənin qazanılmasından, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpasından sonra Azərbaycanın qarşısında dayanan yeni çağırışlardan bəhs edib. Bildirib ki, Azərbaycan 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə özünün qələbələr salnaməsinə daha bir möhtəşəm səhifə əlavə edərək tarixi Zəfər qazandı. Bu, qətiyyətli sərkərdənin "dəmir yumruğu", qüdrətli ordunun şücaəti, xalqın liderinə sarsılmaz inamı sayəsində reallaşdı. Tədbirdə, həmçinin partiya veteranı İsgəndər Mustafayev və fəal gənc Rəşad Əliyev Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan danışıblar. Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup fəala fəxri fərman, partiya sıralarına yeni qoşulmuş gənclərə isə üzvlük vəsiqələri təqdim edilib.

### Qaradağ





Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü münasibətilə partiyanın Mərkəzi Aparatı tərəfindən hazırlanmış və İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq YAP-ın Bakı şəhəri üzrə rayon təşkilatlarının gənc fəallarının Heydər Əliyev Mərkəzinə ekskursiyası davam edir. Noyabrın 2-də YAP Qaradağ rayon təşkilatının fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər. Partiya fəalları Ulu Öndərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlarla, əyani vəsaitlərlə tanış olublar.

### Daşkəsən





Noyabrın 2-də Daşkəsən Rayon İcra Hakimiyyətinin akt zalında Yeni Azərbaycan Partiyasının təsis olunmasının 30 illiyinə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə ediblər.

Daşkəsən Şəhidlər xiyabanı da ziyarət olunub, şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə tər güllər düzülüb. Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Yeni Azərbaycan Partiyasının yaranması və inkişaf tarixindən bəhs edən videoçarx nümayiş olunub. Tədbirdə "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" mövzusunda məruzə ilə çıxış edən YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçuyev partiyanın yaranma tarixindən, keçdiyi şərəfli yoldan, gələcək hədəflərindən danışıb. Bildirib ki, 30 illik zəngin və şərəfli inkişaf yolu keçən partiya ötən müddət ərzində ümumxalq partiyasına çevrilərək möhtəşəm nailiyyətlər əldə edib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu çıxışında 30 il öncə Azərbaycanda mövcud ağır durumun yeni bir siyasi təşkilatın yaranması zərurətini ortaya qoyduğunu deyib. Bildirib ki, bu məqsədlə Azərbaycanın bir qrup qabaqcıl ziyalısının xalqın iradəsini ifadə edən müraciətinə cavab olaraq Heydər Əliyev YAP-ın yaradılmasına razılıq verdi: "YAP müstəqilliyə qovuşan ölkəmizin həyatında ən təlatümlü, həyəcanlı zamanda yarandıldı. Təsis edilməsinin 30-cu ildönümünü isə partiyamız ölkə tarixinin ən şanlı günlərində qeyd edir".

Milli Məclisin deputatı Kamran Bayramov YAP-ın yaranma və inkişaf tarixindən bəhs edib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin, atılan uğurlu addımların nəticələri Azərbaycanın və partiyanın həyatında özünü aydın şəkildə göstərir. Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev qeyd edib ki, ulu öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə sosial-iqtisadi islahatlar aparılır, geniş abadlıq-quruculuq işləri görülür. Qazanılan nailiyyətlər Azərbaycanın qüdrətinin daha da artmasını şərtləndirir.

Tədbirdə çıxış edən "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmiş Vətən müharibəsi iştirakçısı Elvin Əliyev qeyd edib ki, Vətən müharibəsində qazanılan qələbədə partiyanın siyasi-ideoloji kursunun müstəsna rolu var. Sonda rayon təşkilatının həyatında fəal iştirak edən bir qrup partiya üzvlərinə fəxri fərman və partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi təqdim olundu.

# Yeni Azərbaycan Partiyası- 30

# YAP-ın yaranma tarixindən 30 il ötür

*Bu gün ölkəmizin tarixində mühüm yeri olan, bütün dünya arenasında inkişafı ilə seçilən, mötəbər tribunalardan öz sözünü deyən Yeni Azərbaycan Partiyasının yaranmasının 30-cu ildönümünü qeyd edirik. Təbii ki, bu hadisə hər bir azərbaycanlını sevindirir, qürurlandırır. Tarixin səhifələrinə diqqət yetirsək görərik ki, Yeni Azərbaycan Partiyası respublikada çox çətin və keşməkeşli, müstəqil Azərbaycan dövlətçiliyinin məhv olmaq təhlükəsi ilə qarşılaşdığı bir zamanda yaradıldı.*

Düz 30 il əvvəl - 1992-ci ilin noyabr ayının 21-də böyük əziyyətlə yaradılan YAP cəmi altı ay sonra hakimiyyətə gəldi və tez bir zamanda ölkənin aparıcı iqtidar partiyasına çevrildi. "Bütünlüklə bütün fəaliyyətimi yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub-saxlanmasına həsr edəcəyəm" - deyən dahi rəhbər Heydər Əliyev ilk növbədə bütün diqqətini ölkədə anarxiyanın, özbaşınalığın, xaosun aradan qaldırılmasına, sabitliyin bərpasına, vətəndaş həmrəyliyinin yaradılmasına yönəltdi. Ölkədəki mövcud durumu, ictimai-siyasi prosesləri hər zaman uzaqgörənliklə diqqətdə saxlayan Ulu öndər daim çıxışlarında bunu vurğulayırdı: - "Respublikada ictimai-siyasi sabitlik, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramın inkişafından, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz".

Məhz buna görə də O, Azərbaycanın güclü dövlətçilik xəttini, onun siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli intibah və inkişafının təməl sütunu olan bir ideyanın - azərbaycançılıq məfkurəsinin əsasını qoydu. Dövlət müstəqilliyini elan etdikdən sonra Azərbaycanın qarşısında bu müstəqilliyi qoruyub saxlamaq, dövlətçiliyimizi inkişaf etdirmək, demokratik islahatlar aparmaq kimi mühüm vəzifələr dururdu. Lakin müstəqilliyimizin elə ilk günlərindən Azərbaycanda baş verən ictimai-siyasi hadisələr - daxili çəkişmələr, soydaşlarımızın öz dədə-baba ocaqlarından qovulması, torpaqlarımızda gedən qanlı döyüşlər, xarici qüvvələrin müdaxiləsi və s. nəticəsində ölkəmiz böyük əziyyətlər hesabına yenicə əldə etdiyi müstəqilliyini itirmək və Azərbaycan Demokratik Respublikasının acı taleyini yaşamaq təhlükəsi qarşısında qalmışdı...Məhz həmin illərdə böyük siyasətçi Heydər Əliyev Bakıya gəldiyi zaman hakimiyyətdə olan qüvvələr onun xalq arasında olan nüfuzundan, ona bəslənən sonsuz məhəbbətdən, dərin zəkaya malik olan böyük siyasəti olmasından qorxuya düşərək hər vasitə ilə ona maneçilik törətməyə çalışdılar. Ulu Öndər Heydər Əliyev fəaliyyətini davam etdirmək, xalqla bir olmaq, onunla əlaqə yaratmaq üçün doğulduğu doğma yurda-Naxçıvana getməyi lazım bildi. Demək olar ki, o, Naxçıvanın bütün bölgələrində insanlarla görüşlər keçirdi. Özü demiş, bu görüşlər insanlar üçün böyük dəstək, təsəlli, arzuolunan istək oldu.Çox keçmir ki, nicat yolunu yalnız və yalnız Heydər Əliyevdə görən xalq onu Naxçıvan Muxtar Respublikasının, eləcə də Azərbaycan Respublikasının parlamentinə deputat seçirlər. Beləliklə, bu təyinatdan sonra respublikanın ictimai-siyasi həyatında yeni bir səhifə, yeni bir mərhələ başlayır. MR Ali Sovetinin 1990-cı il noyabrın 17-də keçirilən birinci sessiyasında Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet", "sosialist" sözləri çıxardıldı. Naxçıvan MSSR Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı. Ali Məclisin sessiyasında, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul edildi və Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qaldırdı ki, Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında analoji qərarlar qəbul edilsin. Xalqının, millətinin mənafeyini hər şeydən üstün tutaraq Bakıya qayıdan Heydər Əliyev xalqın ümid yerinə çevrilərək xalqın etimadını doğrultmaq üçün bütün çətinlikləri mərhələli şəkildə dəf edərək, onların öhdəsindən layiqincə gəldi. 1991-ci il sentyabrın 3-də dahi siyasətçi Heydər Əliyevin Naxçıvan Ali Məclisinin sədri seçilməsi ilə Azərbaycan xalqının milli azadlıq hərəkatının mərkəzi Naxçıvandan Bakıya keçdi. Və bu hərəkatın rəhbəri məhz Heydər Əliyev oldu. Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü, müharibə şəraitindən çıxmasını istəyən xalq nicat yolunu məhz Dahi Öndər Heydər Əliyevdə gördü. Bu ağır dövrdə xalqın ümummilli hərəkata çevrilmiş çağırışı ilə "Ömrümün bundan sonrakı hissəsini yalnız və yalnız Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm" deyərək, ölkəyə rəhbərliyi və ən əsası, xilaskarlıq missiyasını üzərinə götürən Heydər Əliyev mövcud siyasi, hakimiyyət və dövlət böhranının aradan qaldırılması yollarını, müstəqil Azərbaycanın daxili və xarici siyasətinin əsas istiqamətlərini müəyyənləşdirdi.Respublikanın hər tərəfindən Naxçıvan şəhərinə axışan siyasilərin, ziyalıların, sadə zəhmət adamlarının iştirakı ilə 21 noyabr günündə Yeni Azərbaycan Partiyası (YAP) təsis olundu. 1993-cü ilin iyununda xalqın tələbi ilə ümumxalq partiyasının sədri, Azərbaycan xalqının görkəmli lideri Heydər Əliyev siyasi hakimiyyətə qayıtdı. Onun geri qayıdışı ölkənin sağlam qüvvələrini bir araya toplamaqla yanaşı, Azərbaycanı mövcud iflasdan xilas etdi.YAP-ın yaranma zərurətindən danışarkən vacib bir amili qeyd etmək yerinə düşər. O zaman mövcud vəziyyətdən çıxmaq üçün tək bir çıxış yolu var idisə o da YAP-ın yaranması idi. Bu siyasi təşkilatın yaradılması tarixi zərurət idi. O zaman xalq nicat yolunu, yalnız Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışında görürdü. Elə həmin vaxtlar 91 nəfər Azərbaycan ziyalısı Naxçıvana, Ulu Öndər Heydər Əliyevə müraciət ünvanlamışdı. Əslində bu müraciət ümumən Azərbaycan xalqının birliyindən doğan tarixi zərurət idi. Həmin müraciətdə Dahi siyasətçidən xahiş olunurdu ki, yaradılacaq Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyi öz üzərinə götürsün. Çünki o dövrdə ölkənin üzləşdiyi problemlərin öhdəsindən layiqincə gələ biləcək şəxs yalnız Ulu Öndər Heydər Əliyev ola bilərdi. Ona görə də, 1992-ci il noyabrın 21-də Naxçıvanda yaradılan YAP-ın təsis konfransında Ümummilli Lider Heydər Əliyev yekdilliklə yeni yaradılan partiyanın Sədri seçildi. Bir il sonra isə Ulu Öndər Heydər Əliyev prezident seçkilərində xalqın səsini qazandı. Tarix göstərdi ki, çox çətin, məşəqqətli bir dövrdə yaranan Yeni Azərbaycan Partiyası demokratik prinsiplər əsasında formalaşan cəmiyyətdə, çoxpartiyalı sistemdə özünə layiqli yer tutdu.



*Adilə Abasova, 2-ci dərəcəli dövlət müşaviri, YAP Veteranlar Şurasının üzvü, Fizika -riyaziyyat elmləri doktoru, professor*

*"Partiyamızın fəaliyyəti, ideyaları, apardığı siyasət gənc nəsil üçün də cəlbedicidir və bu, çox müsbət haldır. Bu, onu göstərir ki, Azərbaycanda bundan sonra da uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq və partiyanın təbliğ etdiyi, bəyan etdiyi prinsiplər bu gün xalq tərəfindən tam dəstəklənir"*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti,**
**Yeni Azərbaycan Partiyasının Sədri**

Bir sözlə, xalqın düzgün seçimi yeni və qüdrətli Azərbaycanın yaranması ilə nəticələndi. Ona görə ki, YAP üzərinə düşən missiyanı uğurla həyata keçirdi və bu gün də bu inkişaf göz önündədir. Ulu Öndər Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bununla da, ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Hadisələrin gedişatına diqqət yetirsək görərik ki, hakimiyyətdə olduğu illərdə (1993-2003) Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev öz xalqına, eləcə də YAP Sədri kimi güclü, enerjili kadr potensialına arxalanaraq öz qətiyyəti, uzaqgörən siyasəti nəticəsində Azərbaycanı inkişaf yoluna çıxarmaqla yanaşı, imzasını dövlətçilik tarixinə müstəqil Azərbaycanın qoruyucu əbədiyaşar lideri kimi iri hərflərlə həkk etdi.2003-cü il oktyabrın 1-də Azərbaycan dövlətinin memarı və qurucusu, bütün ömrünü Azərbaycan xalqının rifahına həsr etmiş ümummilli lider Heydər Əliyevin xalqa tarixi müraciəti oldu. Ulu öndər Heydər Əliyev prezident seçkilərində öz namizədliyini İlham Əliyevin xeyrinə geri götürdüyünü bildirdi. O, çıxışında Azərbaycan xalqını özünün siyasi varisi, dünya siyasətini gözəl bilən, yüksək intellektli, qətiyyətli və praqmatik düşüncəli bir şəxsiyyət olan İlham Əliyevə səs verməyə çağırdı. Ulu Öndər İlham Əliyevə özü qədər inandığını, İlham Əliyevi güclü siyasətçi olmaqla yanaşı dövlətini, xalqını sevən və lazım gələrsə xalq yolunda canını belə verməyə hazır olan insan olduğunu bildirdi. Ulu öndər bütün fəaliyyəti dövründə xalqa arxalanırdı və xalq da Heydər Əliyevə inanırdı. Xalqımız çox gözəl bilirdi ki, dövlətimizi gələcək inkişafa, vətəndaşlarımızı rifaha aparan yol Heydər Əliyev yoludur və İlham Əliyev bu siyasi kursun, bu yolun ən layiqli davamçısı olacaq. 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqının böyük əksəriyyəti, 76 faizdən çoxu, prezident seçkilərində İlham Əliyevə səs verdi. Bu, Heydər Əliyev siyasi kursuna, İlham Əliyevə böyük inama verilən səs idi. Xalqımız öz seçimində yanılmamışdı. Prezident İlham Əliyev Azərbaycan dövlətini zirvələrə qaldırdı, dünyada söz sahibinə malik bir dövlətə çevirdi.Prezident seçildiyi ilk illərdən etibarən cənab İlham Əliyev iqtisadiyyatda, səhiyyə, təhsil sistemində, ordu quruculuğunda böyük irəliləyişlərə nail oldu. Müasir, dünya standartlarına uyğun yüzlərlə xəstəxana, minlərlə məktəblər inşa edildi. Gələcək nəsillərimizin sağlam böyüməsi, dünya idman arenalarında idmançılarımızın Azərbaycan bayrağını yüksəklərə qaldırması məqsədilə ölkəmizin demək olar ki, bütün regionlarında olimpiya idman kompleksləri inşa etdirildi.2005-ci il mart ayının 26-da Yeni Azərbaycan Partiyasının III qurultayında yekdilliklə partiyanın sədri seçilən cənab İlham Əliyev bu gün Ulu Öndərimizin quruculuq və inkişaf xəttinin layiqli davamçısıdır. Xalqımız prezident seçkilərində partiyanın lideri cənab İlham Əliyevi dəstəkləməklə, Azərbaycanda Heydər Əliyev yoluna özünün dərin inamını ifadə edib.Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən ötən müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Şübhəsiz, sosial-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində ümummilli lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. O da həqiqətdir ki, Ulu öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və inkişafa nail olub.



Gənc dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi və uzaqgörənliyi, ümumilikdə, rasional varislik modeli sayəsində mümkün olub. Yeni Azərbaycan Partiyasının (YAP) 2021-ci il martın 5-də keçirilən VII qurultayı istər partiyanın, istərsə də ictimai-siyasi münasibətlər sistemimizin tarixində mühüm bir hadisə kimi yadda qaldı. Qurultayda partiyanın rəhbər strukturlarının yenidən formalaşdırılması ilə bağlı əhəmiyyətli qərarlar qəbul edildi. YAP-ın yeni Nizamnaməsi təsdiq olundu, İdarə Heyəti, Təftiş Komissiyası, Veteranlar Şurası seçildi və bir sıra siyasi partiyaların Yeni Azərbaycan Partiyasına qoşulmasına dair müraciətlərinə baxıldı. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev çıxışı zamanı Ümummilli Liderimiz Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının keçdiyi tarixi inkişaf yoluna nəzər saldı, qarşıda duran vəzifələri diqqətə çatdırdı, mühüm fikirlər səsləndirdi. Partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisədir. Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır: "Partiyamızın böyük ənənələri var. Hesab edirəm ki, partiya yeniləşmiş formatda, o cümlədən rəhbər orqanlarında təmsil olunan namizədləri nəzərə alsaq daha fəal olacaq, ölkə qarşısında duran problemləri daha fəal icra edəcəkdir".

Dövlətimizin başçısı, YAP-ın Sədri cənab İlham Əliyev qurultayda qeyd etdi ki, siyasi partiyalarda fəaliyyət göstərən gənc nəslə elə təlimat verilməlidir ki, onlar gələcək həyata hazırlıqlı olsunlar, onlar ölkəmizin müstəqilliyini hər şeydən üstün tutsunlar: "Burada, əlbəttə ki, təcrübəli nəslin fəaliyyətindən çox şey asılıdır. Misal üçün, Yeni Azərbaycan Partiyasında Veteranlar Şurası yaradılıb. Hesab edirəm ki bu, çox önəmli addımdır. Bu Veteranlar Şurasının tərkibində tanınmış hörmətli insanlar fəaliyyət göstərəcəklər". Qeyd edim ki, onun bu addımı - YAP Veteranlar Şurasının yaradılması Yeni Azərbaycan Partiyasının qurucu nəslinə böyük diqqət, ehtiramı ilə yanaşı, Veteranların təcrübəsindən, məsləhətlərindən gənclərin istifadə etməsi deməkdir. Bu gün Ümummilli lider Heydər Əliyevin qoyduğu tarixi ənənələr YAP tərəfindən sədaqətlə həyata keçirilir. Bu tarixi reallığı müdrik prezident, YAP sədri cənab İlham Əliyev qətiyyəti, dönməz siyasəti ilə gerçəkləşdirir. Azərbaycanın get-gedə artan nüfuzu, beynəlxalq arenada söz sahibi olması dünyanın ən nüfuzlu şirkətlərinin iqtisadiyyatımızın mühüm sahələrinə investisiya qoyulmasını gündəmə gətirərək daha da surətləndirdi. Ən başlıcası da budur ki, xalq bu addımları məmnunluqla qarşılayır və yüksək dəyərləndirir.

Azərbaycan Respublikasının II Qarabağ savaşında qələbə qazanması böyük tarixi əhəmiyyət kəsb etməklə yanaşı, həm dövət başçısı, həm də Yeni Azərbaycan Partiyasının sədri kimi cənab İlham Əliyevə bəslənən ümidləri bir daha artırdı. Xalq başa düşdü ki, böyük dövlətlərin himayəsində olan Ermənistanla böyük zəfərə gedən yolda qələbə qazanılması heç də anidən, asanlıqla başa gəlməmişdir. Belə ki, daim ərazilərimizi atəşə tutan ermənilər 27 sentyabr 2020-ci il səhər saatlarında genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmuşlar. Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhəboyu sürətli əks-hücum əməliyyatı başlaması barədə qərar verildi. İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan xeyli az itki ilə böyük zəfərə imza atdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev noyabr ayının 8-də xalqımıza Şuşanın azad edilməsi müjdəsini verdi. "Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir" söyləyən cənab İlham Əliyev əminliklə bildirmişdir: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" Şuşa zəfəri, əslində, müharibənin taleyini həll etdi. Ertəsi gün daha 70-dən çox kəndin azad olunması xəbəri gəldi və bundan bir gün sonra N.Paşinyan Azərbaycan Prezidentinin şərtlərini qəbul edərək "kapitulyasiya aktı"na imza atmağa məcbur oldu. Noyabr ayının 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladılar. Bəyanata əsasən noyabrın 20-də Ağdam. Beləliklə, Azərbaycanın hərbi qələbəsi Ermənistanı kapitulasiyaya məcbur etdi. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan xalqı tarixi qələbə qazanmış, ölkəmizin ərazi bütövlüyü bərpa olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" 2020-ci il 3 dekabr tarixli Sərəncamına əsasən Vətən müharibəsində misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il 8 noyabr tarixinin Azərbaycanda "Zəfər Günü" kimi qeyd edilməsi qərara alınmışdır. Dekabrın 10-da keçirilən möhtəşəm Zəfər paradı isə Azərbaycanın hərbi gücünü və tarixi Qələbəmizi bütün dünyaya bir daha nümayiş etdirdi. Zəfər paradı müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 gün davam edən "Dəmir yumruq" hərbi əməliyyatında qazandığı tarixi Qələbənin təcəssümü oldu. Paradda nümayiş etdirilən texnikalar dövlətimizin başçısı İlham Əliyev tərəfindən hərbi sahəyə göstərilən diqqət və qayğını nümayiş etdirdi. Bakı Metropoliteninin 29 may 2021-ci ildə istifadəyə verilən stansiyasına ölkə başçısı İlham Əliyevin xüsusi təşəbbüsü ilə Zəfər Günü münasibətilə "8 Noyabr" adı verildi. Bu stansiya dövlətimizin keçdiyi keşməkeşli yolun xoşbəxt sonluğuna, "Dəmir yumruğun" gətirdiyi Qələbə müjdəsinə şahidlik edəcəkdir. Beləliklə, 44 günlük müharibə Azərbaycan xalqının nə qədər vətənpərvər, böyük xalq olduğunu, milli birliyini, həmrəyliyini bütün dünyaya sübut etdi. Azərbaycan tarixi torpaqlarına - Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə, digər şəhər və rayonlarımızda törədilən soyqırımları zamanı həlak olan günahsız insanların qisası döyüş meydanında alındı, işğalçı Ermənistana layiq olduğu yer göstərildi. Bu qələbəni, zəfəri bizlərə yaşadan isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, güclü ordumuz, rəşadətli əsgər və zabitlərimizdir. Bu gün biz böyük fərəhlə torpaqlarımızın adlarını çəkir, doğulduğumuz doğma ocaqlarımıza gedə biliriksə bunun üçün onlara minnətdarıq.Bu il oktyabrın 20-də ölkə başçısı İlham Əliyevin Birinci xanım Mehriban Əliyeva ilə Zəngilan rayonuna səfərimi həyatımın ən xoş, yaddaqalan, möhtəşəm günü hesab edirəm. Görüş zamanı sevincimizin, qürurumuzun həddi-hüdudu yox idi. Görüş çox səmimi, mehriban şəraitdə keçdi. Sözlə ifadə etmək çətindir, bu hissləri yaşamaq lazımdır. Zəngilan barədə hər kəs səmimi söhbət edirdi. Mən də yadıma ötən illəri, yaşadığımız xoş uşaqlıq, gənclik illərini salırdım. Axı mən də illərlə həsrətini çəkdiyim Zəngilan torpağında doğulmuş, həyatımın ən şirin, maraqlı uşaqlıq illəri burada keçmişdi. İbtidai təhsilimi Zəngilan rayonunun Pirçivan qəsəbəsində almışam. Sosialist Əməyi Qəhrəmanı Ziyad Məmmədovun qızıyam. Atam 1940-cı ildən 1953-cü ilədək Zəngilan rayonu İcraiyyə Komitəsinin sədri vəzifəsində çalışıb. Müharibə illərində və sonra da quruculuq işləri ilə məşğul olub...

Görüşdə işğaldan əvvəlki Zəngilan və işğal dövründə rayonun tamamilə dağıdılması haqqında, eləcə də bu gün həyata keçirilən tikinti-quruculuq işlərindən danışıldı. Biz dağıdılmış Dağüstü Parkın yanından başlayaraq rayon mərkəzinə doğru gedərkən Zəngilanın bərəkətli torpağından Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya danışırdıq. O, bizi çox maraqla dinləyirdi. Zəngilan torpağında keçirilən bu görüş bizə böyük qürur verdi. Yenə də qeyd etdim ki, bütün bunların səbəbkarı, Azərbaycanı qalib dövlətə çevirən, xalqımızın başını uca edən Prezident İlham Əliyevdir. Bu xoşbəxt günləri bizə bəxş etdiyi üçün dövlətimizin başçısına minnətdarıq. Biz Azərbaycan xalqının övladı olmağımızla fəxr edirik.Lider-Xalq-Ordu birliyi sayəsində zəfər qazandıq. Sevincli, şərəfli günlərimizi yaşayırıq. Qalib xalq kimi fəxr edirik. Bu məqamda Prezident İlham Əliyevin haqqında Ulu öndər Heydər Əliyevin vaxtilə söylədiyi bu fikri yada salmaq yerinə düşər: "Mən ona özüm qədər inanıram və onun gələcəyinə çox böyük ümid bəsləyirəm". Ulu Öndərin bu fikirlərinin hər keçən gün öz təsdiqini tapdığının və İlham Əliyevin hər bir azərbaycanlının Prezidenti olduğunun şahidi oluruq."Dağlıq Qarabağ bizim qədim, tarixi torpağımızdır və biz o torpaqlara qayıdacağıq". Bu sözləri öz çıxışlarında dəfələrlə qeyd edən Prezident İlham Əliyev Ulu öndər Heydər Əliyevə və xalqımıza verdiyi sözləri tutdu. Ata vəsiyyətini yerinə yetirdi. Ordumuza, eləcə də möhkəm iradəli xalqımıza inanaraq Zəfər qazandı. Ərazi bütövlüyümüz bərpa edildi.Sentyabrın 27-dən başlayan Vətən müharibəsi Azərbaycan xalqının "Dəmir yumruq" ətrafında birləşməsi tarixidir. Erməni mifinin dağıdılmasının başlanğıc ərəfəsidir. Qarabağın tacı olan Şuşanın azad edilməsi dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyat idi. Bu, bizim şanlı qələbəmizdir.Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sözləri ilə desək, bizim vahid arzumuz Qarabağ şikəstəsini Qarabağ torpağında birlikdə eşitməkdir. Zəngilanda da "Qarabağ şikəstəsi" səsləndi.Tarixi ədaləti bərpa edən Müzəffər Ali Baş Komandan İlham Əliyev qurucu lider, sərkərdə və xalqımızın ən böyük arzularını gerçəkləşdirən şəxsiyyət kimi adını əbədi olaraq tarixə həkk etdi.

Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan xalqı!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümummilli lider Heydər Əliyevin siyasi ənənələrinə söykənərək "daim yeniləmə, daim dəyişmə və daim inkişaf etmə" prinsipini əldə rəhbər tutaraq Yeni Azərbaycan Partiyası ilə birgə irəliləyir...

# Yeni Azərbaycan Partiyası- 30

# Bu gün YAP Cənubi Qafqazın ən güclü siyasi qüvvəsidir!

## Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbirlər keçirilib

### Astara






Noyabrın 2-də Astara Rayon İcra Hakimiyyətinin akt zalında Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Astara Şəhidlər xiyabanını ziyarət edib, şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri düzüblər. Sonra ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə edilib.

Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Astara rayon təşkilatının sədri Həbib Cəfərov bildirib ki, Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranmış partiyadır. Ulu öndər Heydər Əliyevin qurucusu olduğu partiyanın 30 il ərzində zəngin və şərəfli inkişaf yolu keçdiyini deyən Həbib Cəfərovun sözlərinə görə, bu gün Yeni Azərbaycan Partiyası Cənubi Qafqazın ən güclü siyasi qüvvəsidir. "Azərbaycan xalqı əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasəti tam dəstəkləyir. Regionun güc mərkəzinə çevrilən Azərbaycan dövlətinin nailiyyətlərinin arxasında vətəndaş həmrəyliyi və uğurlu dövlət siyasəti dayanır. 44 günlük Vətən müharibəsinin möhtəşəm zəfərimizlə başa çatmasının əsasında da məhz bu həmrəylik və vətəndaşlarımızın Prezident, Ali Baş Komandan, partiyamızın Sədri İlham Əliyevin siyasətini birmənalı şəkildə dəstəkləməsi dayanır", - deyən H. Cəfərov YAP Astara rayon təşkilatının fəaliyyəti haqqında da ətraflı məlumat verib. Qeyd edib ki, hazırda ərazi təşkilatlarının sayı 70-ə, üzvlərinin sayı 8 min 35 nəfərə çatıb.

Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev bildirib ki, ölkədə YAP-a rəqib ola biləcək siyasi qüvvə yoxdur: "Ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası şərəfli inkişaf yolu keçərək bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atmaqdadır.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rəşad Mahmudov çıxış edərək vurğulayıb ki, partiyamızın fəaliyyətinin əsasında Heydər Əliyev ideyaları dayanır. YAP-ın Azərbaycan xalqının çətin sınaqlarla üz-üzə qaldığı bir dövrdə yarandığını xatırladan Rəşad Mahmudov qeyd edib ki, həmin dövrdə ulu öndər Heydər Əliyev tarixi missiyanı öz üzərinə götürərək dövlətçiliyimizi məhv olmaqdan xilas etdi: "Bu gün isə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz, o cümlədən Yeni Azərbaycan Partiyası davamlı olaraq inkişaf edir. Ötən il keçirilən VII qurultay isə partiyamızın həyatında yeni mərhələnin əsasını qoyub".

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov çıxışında YAP-ın ölkəmizin ictimai-siyasi həyatında rolundan danışaraq partiyanın alternativsiz siyasi qüvvə olduğunu vurğulayıb. Onun sözlərinə görə, bu gün sıralarında 800 minə yaxın insanı birləşdirən YAP öz gücünü xalqdan alır.

YAP Veteranlar Şurasının üzvü, professor Südeyf İmamverdiyev ulu öndər Heydər Əliyevin bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmətindən, cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparmağından bəhs edib. Astara rayon Ağsaqqallar Şurasının sədri Natiq İbadov, şəhər 1 saylı tam orta məktəbin direktoru Xədicə Əliyeva, şəhid Kamran Fərəcovun həyat yoldaşı Nuranə Fərəcova, Vətən müharibəsi qazisi Abbas İbrahimli çıxışlarında partiyanın bundan sonra da ardıcıl uğurlar qazanacağına əminliklərini bildiriblər. Sonda Astara rayonunun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar təqdim edilib.

### Şəki





Noyabrın 2-də Yeni Azərbaycan Partiyası (YAP) Şəki rayon təşkilatı partiyanın yaradılmasının 30-cu ildönümü münasibətilə tədbir keçirib. Öncə tədbir iştirakçıları xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə güllər düzərək xatirəsinə ehtiramlarını bildiriblər. Şəki Şəhidlər xiyabanında torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin məzarları ziyarət olunub, önünə güllər düzülərək xatirələri ehtiramla yad edilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə ulu öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Yeni Azərbaycan Partiyasının 30 illik fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə açan YAP Şəki rayon təşkilatının sədri Daşqın Mikayılov xalqımızın ümummilli lideri Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının 30 il ərzində olduqca şərəfli və məsuliyyətli yol qət etdiyini, öz siyasi xətti və fəaliyyəti ilə xalqın partiyasına çevrildiyini diqqətə çatdırıb. 1992-ci il noyabrın 21-də respublikanın müxtəlif bölgələrindən 550 nümayəndənin iştirakı ilə Naxçıvanda keçirilən Yeni Azərbaycan Partiyasının təsis konfransının tarixi əhəmiyyətə malik olduğu qeyd olunub: "Ümummilli lider Heydər Əliyevin zəngin irsi əsasında və Prezident, partiyamızın Sədri İlham Əliyevin rəhbərliyi altında dövlətimizin qüdrəti, beynəlxalq nüfuzu daha da artacaq".

Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov bildirib ki, bu gün sürətlə inkişaf edən müstəqil dövlətimiz Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin uğurlu siyasəti ilə regionun lider dövlətinə və dünyada söz sahibinə çevrilib. Xalqımız öz Liderinə inanır, onu dəstəkləyir və onun ətrafında sıx birləşib.

YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva çıxışında Heydər Əliyev ideyalarının böyük zəfərlərə yol açdığını söyləyib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın tarixi nailiyyətlər qazandığını, möhtəşəm Qələbəyə imza atmaqla tarix yazdığını söyləyib, Yeni Azərbaycan Partiyasının bundan sonra da ardıcıl uğurlar qazanacağına əminliyini ifadə edib.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Vüqar İsgəndərov vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti sayəsində yaradılan YAP zəngin və şərəfli inkişaf yolu keçib. Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun milli maraqların ifadəçisi olmasıdır.

Tədbirdə cıxış edən şəhid Səbuhi İskəndərlinin anası Gülnarə Mustafayeva, Vətən müharibəsi qazisi Anar Hüseynov, partiya veteranı Kamil Məmmədov, YAP fəalı Murad Qəhrəmanov torpaqlarımızın işğaldan azad edilməsinin Yeni Azərbaycan Partiyasının uğurlu siyasi fəaliyyətinin əsas nəticəsi olduğunu bildiriblər.

Sonra partiyanın və rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup şəxs fəxri fərmanla təltif edilib. Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul edilmiş şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

Ardı Səh. 11

# Yeni Azərbaycan Partiyası- 30

# Bu gün YAP Cənubi Qafqazın ən güclü siyasi qüvvəsidir!

Əvvəli-Səh-10

## *Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbirlər keçirilib*





### Füzuli

Noyabrın 2-də Füzuli rayon Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları rayon Şəhidlər xiyabanını ziyarət edib, şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri düzüblər. Sonra ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə edilib.

Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Füzuli rayon təşkilatının sədri Almaz Həşimova bildirib ki, ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası yarandığı zamandan keşməkeşli yol keçib və ümumxalq partiyasına çevrilib. Azərbaycan xalqının Ümummilli Liderinin qətiyyəti və iradəsi hesabına yaradılan və bu gün istər ölkə daxilində, istərsə də regionda lider partiya olan Yeni Azərbaycan Partiyası həm ölkə daxilində cərəyan edən siyasi proseslərdə, həm də beynəlxalq əlaqələrdə böyük uğurlara imza atıb. Yeni Azərbaycan Partiyasının bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atdığını qeyd edən rayon təşkilatının sədri bu uğurların zirvəsində tarixi Zəfərimizin dayandığını vurğulayıb. Almaz Həşimova YAP Füzuli rayon təşkilatının fəaliyyəti haqqında da ətraflı məlumat verib. Qeyd edib ki, hazırda ərazi partiya təşkilatlarının sayı 58-ə, üzvlərinin sayı isə 6803 nəfərə çatıb.

Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev isə çıxışında qeyd edib ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayıb. Onun sözlərinə görə, ümummilli lider Heydər Əliyevin siyasi kursunu müasir dövrümüzün tələbləri əsasında davam etdirən Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin Azərbaycana Zəfər bəxş etmiş Müzəffər Ali Baş Komandan olduğunu bildirib.

YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, YAP-ın növbəti ildönümü təkcə partiyamızın çoxsaylı üzvləri üçün deyil, ümumilikdə Azərbaycanın hər bir vətəndaşı üçün son dərəcə əlamətdardır: "Xalqın taleyində müstəsna rol oynayan, Azərbaycanı xaos və anarxiyadan, vətəndaş müharibəsindən, iqtisadi tənəzzüldən, bir sözlə, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib davamlı sabitlik, tərəqqi və iqtisadi yüksəliş yoluna çıxaran bir siyasi qüvvənin - Yeni Azərbaycan Partiyasının yaranmasının 30-cu ildönümü ölkəmizin hər bir guşəsində təntənəli şəkildə qeyd olunur. Çünki ulu öndər Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq siyasi həyata vəsiqə almış Yeni Azərbaycan Partiyası ötən müddət ərzində milli birliyin, vətəndaş həmrəyliyinin, sabitlik və tərəqqinin təminatçısı qismində çıxış edib".

Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirib ki, Yeni Azərbaycan Partiyası ötən 30 il ərzində böyük inkişaf yolu keçib və bir çox uğurlara imza atıb. Bütün bunlar onu deməyə əsas verir ki, ümumxalq partiyası olan YAP-ın fəaliyyəti qarşıdakı dövrdə də Azərbaycanın inkişafına layiqincə xidmət edəcək.

Tədbirdə, həmçinin partiya veteranı Rafael Zülfüqarov, Vətən Müharibəsi Qəhrəmanı, şəhid Fəqan Zalovun atası Amil Zalov, Vətən müharibəsi qazisi Anar Azadov çıxış edərək Yeni Azərbaycan Partiyasının keçdiyi şanlı inkişaf yolundan danışıblar.

Tədbirin sonunda Vətən müharibəsi qazilərinə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamlarına əsasən təltif olunduqları medallar, partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri, Füzuli rayonunun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına isə fəxri fərmanlar təqdim edilib.

### İmişli

Noyabrın 2-də İmişli rayon Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, Ulu Öndərin əziz xatirəsini dərin hörmət və ehtiramla anıblar. Şəhidlər xiyabanı ziyarət edilib və önünə gül dəstələri düzülüb.

Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının 30 illik fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, keçdiyi mürəkkəb və şərəfli yoldan söhbət açıb. Bildirib ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı ümummilli lider Heydər Əliyevin müstəqil, demokratik, hüquqi dövlət quruculuğu yolunda gərgin fəaliyyəti Azərbaycanın bu gününü və gələcək taleyini müəyyən edib: "Azərbaycanın qazandığı böyük nailiyyətlər ulu öndər Heydər Əliyevin yaratdığı və bu gün Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə sıx bağlıdır".

Yeni Azərbaycan Partiyasının zərurətdən yaranmış avanqard siyasi qüvvə olduğunu vurğulayan İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev o dövrdə baş verən hadisələrdən, partiyanın yaranmasından və hazırda xalqın öz liderinə olan inamından bəhs edib. O, Yeni Azərbaycan Partiyasının Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf və qələbə yolunda əmin addımlarla irəlilədiyini vurğulayıb.





YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov çıxışında qeyd edib ki, xalq Heydər Əliyevə arxalanmaqla, onun ətrafında sıx birləşməklə öz gələcəyini təmin etmiş oldu. Bu gün sürətlə inkişaf edən müstəqil dövlətimizi uğurlu inkişafa aparan bu yolda hər bir Azərbaycan vətəndaşı Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin siyasi kursunu dəstəkləyir və böyük əzmlə dövlətin, xalqın, vətənin mənafeyi naminə səy göstərir.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Elman Nəsirov deyib ki, Yeni Azərbaycan Partiyasının yaranması, Ulu Öndərin hakimiyyətə qayıdışı ilə ölkədə vətəndaş müharibəsi təhlükəsinin, daxili və xarici bədxahların Azərbaycanı parçalamaq, dövlətçiliyimizi məhv etmək istiqamətindəki bütün cəhdlərinin qarşısı alındı. Heydər Əliyev öz Qayıdışı ilə Azərbaycana sabitlik, dirçəliş və fasiləsiz inkişaf gətirdi.

Tədbirdə ərazi partiya təşkilatı sədri Şəlalə Rəhimova, partiya fəalları Səfurə Muradova və Emin Ağadədəyev çıxış ediblər. Sonra partiyanın və rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup şəxsə diplom və partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

# Fransa Senatı bu cinayətləri niyə qəbul etmir?

*Azərbaycanı hədəfə alan ermənipərəst senatorlar və Makron hakimiyyəti Fransanın Əlcəzairdə və digər ölkələrdə törətdiyi hərbi cinayətlərini etiraf etməlidir!*



**1960-cı illərin əvvəllərinə qədər fransızlar Məğrib əhalisini kütləvi şəkildə məhv edirdi. Və maraqlıdır ki, vaxtilə törətdikləri həmin vəhşilikləri xatırlamadan, yaxud etina etmədən Senat nümayəndələri indi də Azərbaycanı hədəfə almaqla ölkəmizi "kütləvi hərbi cinayətlərdə", yaxud "Ermənistan Respublikasının suveren ərazilərinə qarşı aqressiya nümayiş etdirməkdə" ittiham edir, öz hakimiyyətlərinə çağırışlar ünvanlayaraq BMT-nin Təhlükəsizlik Şurasının Beynəlxalq cinayət məhkəməsinə müraciət etməsi üçün "qətiyyətli" olmağa səsləyirlər (???!!!)**



Halbuki Fransanın özü yalnız Əlcəzairdə deyil, digər ölkələrdə də öz vəhşi üslublarını tətbiq etməklə çoxsaylı hərbi cinayətlərə əl atıblar. Məsələn, elə Fransada nəşr edilən "Musulmans en France" internet-nəşri 2021-ci ilin fevralında bunları yazıb: "Qətllər, dəhşətli edamlar və işgəncələr baş verənləri "insanlığa qarşı cinayət" kimi qəbul olunması baxımından Fransanın Kasasiya məhkəməsini narahat etmədi və məhkəmə 2003-cü ildə həmin ittihamları rədd etdi".

Eyni zamanda, bildirilir ki, hələ 2017-ci ildə prezidentliyə namizəd olan Makron Əlcəzair qətliamını soyqırımı kimi qəbul edilməli olduğunu desə də sonradan həmin fikrini dəyişdi: "2017-ci ildə namizəd Makron görünür tarixi doğru məcraya yönəltməyə cürət etdi. "Kolonizasiya fransız tarixinin bir hissəsidir. Bu, insanlığa qarşı cinayətdir, bu barbarlıqdır...". Lakin namizədin cürəti seçilənə qədər oldu. O, 2017-ci ildən kolonizasiyanı yumşaq vəziyyət kimi təqdim etdi".

"Musulmans en Franse" internet-nəşri eyni zamanda nüfuzlu Fransa tarixçisi Qranmezonun fikirlərindən də sitat gətirib: "1945-ci ildən başlayaraq istintaqsız və məhkəməsiz qətlə yetirilən və edam edilən yerli əhalinin sayı təqribən 40 mindir.Onlar siyasi və irqi səbəblərə görə öldürülüblər".

"Humanite" nəşri isə 2022-ci ilin martına qeyd edib: "Əlcəzairdə Fransadan olan bir köçkünün öldürülməsi hadisəsi baş verib. Fransa heç bir araşdırma aparmadan onlarla ərəbi kollektiv məsuliyyət adına qətlə yetirdi". Bənzər qətliam 1955-ci ildə Filippvildə yaşanıb. Adıçəkilən nəşr yazır: "Təsadüfi qisas məqsədi ilə insanları stadiona toplayaraq 2000 nəfəri avtomatlardan atəş açmaqla öldürdülər". Bütün bunları və digər dəhşətli cinayətləri unudan fransızlar azərbaycanlıları "kütləvi cinayətlərdə" ittiham edərək hansısa "Beynəlxalq məhkəmədən" dəm vururlar.

Xatırladaq ki, Fransa Senatı noyabrın 15-də Azərbaycan Respublikasını hədəfə almaq üçün qətnamə qəbul etməyə hazırlaşır və buna qarşı ölkəmizdə petisiya imzalarının toplanılmasına başlanılıb. Petisiyaya Azərbaycana dost olan ölkələrdən də dəstəklər var. Məqsəd, ermənipərəst fransız senatorların böhtan xarakterli ittihamlarının realizə edilməməsinə doğru hesablanıb.

***Rövşən RƏSULOV***






## "Soçi görüşü Azərbaycanın maraqlarına uyğundur"

***"Azərbaycanla Ermənistan liderləri arasında keçirilən danışıqlar formatından və yerindən asılı olmayaraq ölkəmizin təqdim etdiyi 5 baza prinsipi əsasında aparılır". Bunu millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında bildirib.***



Onun sözlərinə görə, Ermənistana təqdim etdiyimiz 5 baza prinsip beynəlxalq normalara, BMT Nizamnaməsinə uyğundur və danışıqlar masasında oturan heç bir tərəf bu prinsiplərin əksini Azərbaycandan tələb edə bilməz: " 31 oktyabrda Rusiya prezident Vladimir Putinin təşəbbüsü ilə Soçidə keçirilən üçtərəfli görüşü də Azərbaycanın regionda davamlı yaratmaq təklifi üzərində quruldu və müzakirə olunaraq razılaşdıran məsələlər ondan əvvəl razılaşdırılmış məsələlərin icrasının sürətlənməsinə töhfə verəcəkdir. Beləliklə, Soçi görüşündə əsasən 3 məsələ razılaşdırıldı. Birincisi BMT Nizamnaməsinə və 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq suverenliyin, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması əsasında sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin sürətləndirilməsi və ilin sonuna qədər konkret nəticələrə imza atmağı ilə bağlıdır. Təbii ki, ölkəmiz delimitasiya və demarkasiya prosesinin tezləşdirilməsinin tərəfdarıdır. Çünki sərhədlərin delimitasiyası və demarkasiyası bir çox mübahisəli məsələlərin həllinə gətirməklə Ermənistanla sülh müqaviləsinin imzalanmasına yol açacaqdır. İkinci razılaşma humanitar məsələlərlə bağlıdır. Belə ki, görüşdə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında ictimaiyyətin, ekspert birliklərinin nümayəndələri və dini liderlər arasında Rusiyanın köməyi ilə dialoqu davam etdirmək üçün, həmçinin iki ölkənin xalqları arasında etimadı möhkəmlətmək məqsədilə üçtərəfli parlamentlərarası əlaqələrin cəlb edilməsi üçün müsbət ab-hava formalaşmasının vacibliyi qeyd olundu".

A.Badamov onu da bildirdi ki, sülh müqaviləsinin bağlanmasından və gələcəkdə qonşuluq münasibətlərin formalaşdırılmasından danışırıqsa, əlbəttə ki, bu gün biz ölkələrimiz arası 30 illik düşmənçilik səhifəsini bağlayıb təmiz səhifədən başlamalıyıq: "Açılacaq yeni səhifə xalqlar arasında etimad mühitinin yaranmasına və birgə yaşayışa söykənməlidir. Üçüncü məsələ kommunikasiyaların açılmasıdır. Hesab edirəm ki, Ermənistan ilk növbədə 10 noyabrda imzalanmış üçtərəfli bəyanatın tərkib hissəsi olan Qərbi Zəngəzurdan azərbaycanlıların maneəsiz keçidini təmin etməlidir. Sonrakı mərhələdə isə ölkələrimiz arası bütün kommunikasiyalar açılmalıdır. Açılacaq digər kommunikasiyalar Azərbaycan və Ermənistanın suveren hüquqlarına əsaslanmalıdır. Yəni, Zəngəzur dəhlizin digər açılacaq kommunikasiyalardan fərqli statusu olmalıdır. Bu status Naxçıvana maneəsiz keçidlə bağlıdır . Rusiya tərəf olaraq Azərbaycan Ermənistan arasında mübahisələrin ədalətlə həll edilməsinə, o cümlədən Cənubi Qafqazda sülh və sabitliyin möhkəmlənməsinə töhfə verməsinə hazır olduğunu bir daha bildirdi. Qeyd etmək istəyirəm ki, Cənubi Qafqazda sülhün və sabitliyin formalaşması üçün revanşistləri ruhlandıran siyasəti heç bir tərəfdən heç bir halda gündəmə gətirilməməlidir. Hesab edirəm ki, Soçidə keçirilən üçtərəfli görüşdə bu məsələ ətrafında da fikir mübadiləsi olmuş və bundan sonra hər bir tərəf özünün açıqlamalarına diqqətli olacaqdır. Regionun gələcəyi davamlı sülhün üzərində qurulmalıdır və düşünürəm ki, Soçi görüşünün də bu istiqamətdə töhfəsi olacaqdır".

***Gülyana***

# Qaz təchizatı sistemi qışa hazırdırmı?

*Havalar soyuyur, istilik sisteminə ehtiyac artıq hiss edilir. Ölkə əhalisinin əsas hissəsi istilik sistemini qazla təmin etdiyi üçün qaz təchizatı ilə bağlı mövsümü qayğılar da başlayır. Əksəriyyəti narahat edən məsələlər qaz təchizatında yarana biləcək problemlər, koda düşən sayğaclar və hər hansı bir qəza nəticəsində soyuq aylarda qazsız qala bilmək ehtimalıdır. Bu yazımızda qaz təchizatı sahəsindəki vəziyyət və qış mövsümünə hazırlığın səviyyəsini araşdırmışıq.*



## Əhalinin təbii qaz təchizatında vəziyyət necə olacaq?

İstilik mövsümünün startına noyabr ayından başlanılır. Qaz istehsalı və əhaliyə verilən qazın həcmi getdikcə artırıldığından qaz təminatında problemlərin olmayacağı gözlənilir. Azəriqaz İstehsalat Birliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Eldəniz Vəliyevdən aldığımız məlumatına görə 2022-2023-cü illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar tədbirlər planına uyğun olaraq şəbəkəyə ötürülən təbii qazın təzyiqinin tənzimlənməsi və normada saxlanılaraq istehlakçıların fasiləsiz təbii qazla təmin olunması üçün 668 ədəd qaz tənzimləyici, 546 ədəd müxtəlif diametrli bağlayıcı armatur quraşdırılıb və ya əvəz olunub, 57 ədəd qaz tənzimləyicinin yeri dəyişdirilib, 148 ədəd qaz tənzimləyici dayaqlar üzərinə qaldırılıb. Şöbə rəisi onu da qeyd edib ki, qış mövsümünə hazırlıq işləri tamam başa çatıb və bu mövsüm qazla təchizatda heç bir problem olmayacaq. Tələbat artdıqca təbii qazın verilişi də artırılır".

Abonentlərin şikayət və müraciətləri haqda isə İB rəsmisi qeyd etdi ki, cari il ərzində ümimilikdə 6251 müraciət daxil olub, ötən illə, yəni 2021-ci illə müqayisədə isə 1320 müraciət az təşkil edir..

## Koda düşən sayğaclar: Niyə düşür, necə açmalı?

Son vaxtlar smart sayğacların tez-tez koda düşməsi və qaz təminatını dayandırması məsələsi əhali tərəfindən narahatlıqla qarşılanır. Əvvəllər sadə tipli qaz hesablayıcıları üçün ödənişi sərfiyyatdan sonra edirdik, lakin smart sayğaclar quraşdırıldıqdan sonra istifadə edəcəyimiz təbii qaza görə ödənişi əvvəlcədən edirik. Bu sayğaclar təbii qazdan təhlükəsiz istifadə olunmanı da təmin edir. Lakin bir çx hallarda istehlakçılar təbii qazdan istifadə zamanı muvafiq təhlükəsizlik qaydalarına düzgün riayət etmir, bu zaman sayğacın klapanı bağlanır, sayğac koda düşür və avtomatik olaraq, təbii qazın verilişi dayanır. Proqram təminatında aparılmış müvafiq işlər nəticəsində smart tipli qaz sayğacları koda düşdükdə abonent kartları vasitəsi ilə onları işə salmaq mümkündür. Artıq abonentlər öz kartları ilə "ALARM 3", "ALARM 5" və "FO-44" koda düşmələrini aradan qaldıra bilərlər.



Bunun üçün abonentlər göstərilən təlimatları ardıcıllıqla yerinə yetirməlidirlər:

**1.** Smart tipli sayğac koda düşdükdə ilk öncə kart koda düşmüş sayğaca daxil edilir. Bu zaman sayğacın ekranında olan informasiya avtomatik olaraq həmin abonentin kartının yaddaşına köçürülür. İki siqnal səsindən sonra kart sayğacdan çıxarılır.

**2.** İstənilən ödəmə məntəqəsində kartın balansına minimum 1 AZN məbləğində vəsait ödənilir.

**3.** Ödəniş həyata keçirildikdən sonra abonentin mənzilində olan qaz cıhazları təhlükəsilik tələblərinə uyğun olaraq sızma testinin aparılması üçün bağlı vəziyyətdə saxlanılmalıdır.

**4**. Kart ödəniş həyata keçirmək üçün sayğaca daxil edilir və iki siqnal səsindən sonra kart sayğacdan çıxarılır.

**5.** Sayğacın üzərindəki göy düymə (klapan aç) 5 saniyə sıxılı saxlanılır. Bu zaman sayğac özü avtomatik olaraq 190 saniyədən geri saymağa başlayır. Göstərilən müddət bitdikdən sonra saygac koddan çıxır və təbii qazın verilişi bərpa olunur.

Qeyd edək ki, bu əməliyyat üçün heç bir xidmət haqqı tələb olunmur və sayğacın koddan çıxarılması zamanı ödənilən məbləğ abonentin balansına əlavə olunur.

## Ekspert: Qaz təchizatında vəziyyət 180 dərəcə dəyişib

Ümumiyyətlə, qaz təchizatı sistemini və abonentlərə xidmətin səviyyəsini necə qiymətləndirmək olar? Sosial problemlər və kommunal xidmətlər üzrə araşdırmaçı ekspert Elçin Bayramlının fikrincə, ümumilikdə, kommunal təchizatlarla bağlı problemlər hələ də tam həll olunmayıb: "Hər il qış gələndə kommunal sistemlərlə bağlı şikayətlər artır. Xüsusən də, su və elektrik təchizatı ilə bağlı. Qaz təchizatında isə vəziyyət qənaətbəxşdir, abonetlərə xidmətin keyfiyyəti ilə bağlı şikayətlər son illərdə minimuma düşüb. Azəriqaz İstehsalat Birliyi hazırda ölkədə ən şəffaf fəaliyyət göstərən dövlət təşkilatıdır. Tez-tez vətəndaşlarla görüşlər keçirilməsi, mütamadi olaraq "Açıq qapı" tədbirlərinin təşkili, İB rəhbərliyinin rayonlarda sakinlərlə görüşləri və istənilən abonentin birbaşa baş direktor tərəfindən qəbul edilməsi çox təqdirəlayiqdir. Son illərdə yaşayış məntəqələrinin qazlaşdırılması, abonentlərin şikayətlərinin operativ şəkildə aradan qaldırılması, təhlükəsizlik tədbirlərinin artırılması kimi işlər bu sahədə vəziyyəti kəskin dəyişib".

Ekspert deyir ki, kommunal təchizat idarələrinə vətəndaşların müraciəti çox vaxt çətin olur: "Su, elektrik, istilik və məşiət tullantıları ilə bağlı idarələrin qaynar xəttinə düşmək çox çətindir, eləcə də onların rəhbər şəxslərinin qəbuluna. Düşəndə də şikayətlərə baxılmır ya da çox gec baxılır. Bunların heç birinin rəhbəri vətəndaşlarla birbaşa görüşmür, sosial şəbəkələrdə interaktiv əlaqədə olmur- yalnız Azəriqaz-ı istisna etmək olar. Azəriqaz-ın qaynar xəttinə edilən müraciət və şikayətlərə dərhal reaksiya verilir və müvafiq tədbir görülür. İB-nin rəhbər şəxsləri daim abonentlərlə birbaşa və virtual təmaslarda olur. Hətta baş direktor Ruslan Əliyev Feysbuk sosial şəbəkəsində tez-tez canlı yayıma çıxaraq istifadəçilərin bütün suallarını şəxsən oxuyur, şikayətlərin araşdırılması və tədbir görülməsi ilə bağlı müvafiq əməkdaşlara tapşırıq verir. Bu, çox müsbət bir təcrübədir, digər kommunal idarələr üçün nümunədir. Belə təmaslar vətəndaş-məmur münbasibəitlərində qarşılıqlı inamı və işin keyfiyyətini yüksəldir. Mən arzu edərdim ki, bütün kommunal idarələrinin rəhbərləri də işə bu cür münasibət göstərsin".

## "Təhlükəsizlik normalarına əməl edilməlidir"

Elçin Bayramlı qaz təchizatı ilə bağlı bəzən bilərəkdən yanlış məlumatlar yayıldığını və məsələnin mahiyyətini bilməyən media orqanlarının da aldandığını deyir: "Məsələn, bəzən texniki səbəbdən qaz təminatı qısa müddətə kəsilir, hər hansı bir səbəbdən qaz borusuna su düşdükdə borunun təmizlənməsi üçün ora güclü təzyiqdə hava vurulur. Bu zaman bəziləri iddia edir ki, qz xəttinə hava vurulur və vətəndaşlar zərərə düşür. Halbuki, proses vaxtı qaz təchizatı ana xəttdən kəsildiyindən abonentin sayğacı bu havanı yaza bimaz. Yalnız hava vasitəsilə boru təmizləndikdən və yenidən qaz veriləndən sonra abonetlərə gedən xətlər açılır və sayğac məhz bu zaman işə düşür. Ümumiyyətlə, işlək qaz xəttinə hava vurulması texniki cəhətdən də mümkün deyl, çünki bu partlayışa səbəb ola bilər".

Ekspert deyir ki, son dövrdə dəm qazından zəhərlənmə halları, partlayış hadisələri və sair qəzalar minimuma ensə də, ara-sıra qəza hadisələri baş verir ki, bu da bəzi abonentlər tərəfindən standarta uyğun olmayan qaz cihazlarının və sair avadanlıqlarının istifadəsi, təlimata uyğun olmayan formada qurulması nəticəsində olur: "Ona görə də, abonentlər bu kimi hallarda müvafiq idarəyə müraciət etməli, təhlükəsizlik normalarına əməl edilməsini təmin etməlidirlər. Mənzillərdə qiyməti elə də baha olmayan qaz detektorlarının quraşdırması çox vacibdir. Bu detektorlar hər hansı bir səbəbdən qaz sızması zamanı siqnal verir və xətti qapayır. Beləliklə faciənin qarşısı alınır.

Unutmalı deyilik ki, xüsusən çoxmənzilli binalarda yaşayanlar qeyri-standrt qaz cihazlarından və avadanlıqlarından istifadə etdikdə, təhlükəsizlik normalarına əməl etmədikdə, özləri ilə bərabər onlarla insanın həyatını təhlükəyə atmış olurlar. Bu səbəbdən də, kommunal sistemlər arasında ən təhlükəlisi olan qaz təhlükəsizliyinə çox ciddi diqqət yetirilməlidir. Qazla bağlı hər hansı bir problem olanda dərhal aidiyyatı idarəyə müraciət edilməsi lazımdır".

***Lalə***

# "Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir"



"Ermənistanda iqtidar partiyasının Qarabağ probleminin həlli ilə bağlı məsələyə münasibətdə qəbul etdiyi yeni konsepsiya forma və məzmun baxımından əvvəlki konsepsiya ilə müqayisədə fərqli təsir bağışlayır. Mahiyyət etibarı ilə isə bu konsepsiyanın özü belə Azərbaycanın daxili işlərinə müdaxilə kimi qiymətləndirilməlidir". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.

Onun sözlərinə görə, bu hal beynəlxalq hüququn norma və prinsipləri baxımından yolverilməzdir: "Qarabağ erməniləri milli mənsubiyyətlərinə görə respublikanın digər azsaylı xalqları ilə müqayisədə hər hansı əlahiddə status daşıya bilməzlər. Hüquqi və demokratik dövlət olaraq Azərbaycan Respublikası ermənilərin də bütün hüquq və azadlıqlarının qarantıdır. Lakin dövlət-vətəndaş münasibətlərində dövlət qarşısında olan öhdəliklər digər azsaylı xalqların vətəndaşlarına şamil edildiyi kimi, erməni əsilli vətəndaşlara da aid olmalıdır. Qarabağ ermənilərinin təhlükəsizliyinin təminatı ilə bağlı məsələləri hər hansı 3-cü tərəfin iştirakı ilə gündəmdə saxlamaq doğru deyil. Bunu danışıqların müzakirə predmetinə çevirmək dövlətimizi daim regional və beynəlxalq güclərin pressinqi altında saxlamağa xidmət edəcək. Buna da Azərbaycan hakimiyyəti və xalqı heç cür razılıq verə bilməz".

E.Manafov onu da bildirdi ki, Azərbaycan 32 illik müstəqilliyi dövründə digər dövlətlərlə münasibətlərində etibarlı tərəfdaş olmaqla yanaşı, öz üzərinə götürdüyü öhdəliklərə dürüstlüklə əməl edib: "Azərbaycan multikulturalizm dövlət siyasətinin həmişə ana xəttini təşkil edib. Bu mənada ermənilərin təhlükəsizliyi ilə bağlı məsələləri qabardaraq stəkanda fırtına yaratmaq istəyi, Qarabağ kartını Azərbaycan dövlətçiliyinin "əyninə biçmək" istəyi erməni millətçilərinin və onların siyasətinə havadarlıq edən bəlli dairələrin çoxdankı arzularıdır. Azərbaycan dövləti və onun başçısının mövqeyi qəti və birmənalıdır. Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Burada dövlətin suverenliyi və ərazi bütövlüyü təmin olunmalıdır. Qarabağ erməniləri, onların problemlərinin həlli Azərbaycanın yurisdiksiyasına aiddir. Azərbaycan BMT TŞ-nın münaqişə ilə bağlı 4 məlum qətnaməsinin icrasına təkbaşına nail olduğu kimi, Qarabağ ermənilərinin də təhlükəsizliyi ilə bağlı problemləri təkbaşına həll etməyə qadirdir. Ermənistan bütün qonşularla normal münasibətlər istəyirsə, ərazi iddialarından əl çəkməlidir".

***Gülyana***

# Torpağı yaşadanlar: nəfəs verib, nəfəs gətirənlər



Azərbaycan xalqı şəhadətə qovuşan oğullarını heç vaxt unutmur və onlar qəlblərdə bir taxt, yuva qurublar. Qəhrəmanlıq şücaətləri ilə bir evin yox, bir obanın övladına çevrildilər. Qısa ömürlə yüzilliklərə adlarını qovuşdurdular. Minlərlə Vətən oğlu Vətən müharibəsində haqq savaşında şəhid oldular. Bu qəhrəmanlıq tarixidir, 44 günün tarixi. Zirvədən-zirvəyə yüksəldilər, xalqın Zəfər tarixini yazdılar. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi. Atrıq Zəfər tariximizə doğru addımlayırıq. İki il bundan əvvəl silaha sarılmış oğullarımız sıldırımlı yolları aşaraq, soyuğa baxmayaraq irəliyə doğru addımlayırdılar. Geri qoyduqları ana, ata, övlad, qarşıda isə işğaldan azad olunacaq torpaqlarımız onları gözləyirdi. Minlərlə vətən oğlu torpağımızın hər qarışı uğrunda şəhid oldular. Ən ali bir zirvədə şəhidlik zirvəsində əbədiləşdilər. Heç bir hiss onları məsləklərindən geri döndərmədi. Belə igidlərdən biri də noyabr ayının 4-ü Laçının Xanalılar kəndində şəhid olan və şəhid general-mayor Polad Həşimovun yaxın dostu, döyüş yoldaşı olan polkovnik leytenant Tağıyev Ruslan Fuad oğludur. O, 1982-ci ildə iyun ayının 12-də İsmayıllı rayonunun Qubaxəlilli kəndində dünyaya göz açıb. İsmayıllı rayonu 3 saylı orta məktəbdə təhsilini başa vurub. 1999-cu ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olub.2004-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda "N" saylı hərbi hissədə tabor kəşfiyyat tağım komandiri, 2005-2010-cu illərdə Kəngərli rayonunda "N" saylı hərbi hissədə kəşfiyyat bölük komandiri, 2010-2012-ci illərdə Culfa rayonunda "N" saylı hərbi hissədə kəşfiyyat bölmə rəisi olub.2012-2014-cü illərdə Ali Hərbi Akademiyada təhsilini davam etdirir. 2014-2017-ci illər arasında Şəmkir rayonu "N" saylı hərbi hissədə kəşfiyyat şöbə rəisinin baş köməkçisi rəisi, 2017-2020-ci illər arasında Müdafiə Nazirliyində müxtəlif vəzifələrdə çalışıb. Vətənə xidməti ərzində bir sıra sertifikatlar, medallar və təşəkkürnamələr ilə təltif olunub.2019-cu ilin fevral və iyun aylarında ikili razılaşma əsasında Çinin Pekin şəhərində ölkəmizi təmsil edib və hərbi biliklərini artırmaq məqsədilə təhsilini davam etdirib. 2020-ci ilin oktyabrında isə Türkiyəyə doktorantura təhsili almağa yollanacaqdı. Lakin Vətən müharibəsi başlayan zaman övladları olan Fuad, Polad və 3 yaşlı Nurayı həyat yoldaşına əmanət edərək, ezamiyyətə gedirəm, deyir, ailəsi bir neçə gün sonra onun döyüşdə olduğunu öyrənir. Atası ilə söhbəti zamanı bu sözləri deyir:"Sizdən bizə qalan bu yükü övladlarımıza miras qoymamalıyıq".

Həyat yoldaşı dəfələrlə diqqətli, ehtiyatlı olmağı ona tapşırsa da polkovnik-leytenant şəhidlərin heç birindən artıq olmadığını bildirir. Qardaşı Həsən Tağızadənin sözlərinə görə, "Verilən məlumatlara əsasən, onun artilleriya atəşinə tutulan əraziyə tək başına "pikap" tipli nəqliyyat vasitəsilə gedərək şəhidləri, yaralıları, üzvləri qopmuş yaralıları çıxardığını bilirik".Vətən uğrunda canını fəda edən igid zabitimiz Vətən müharibəsində bir çox strateji yüksəkliklərin alınmasında fəal şəkildə iştirak edir. Füzuli, Zəngilan, Cəbrayıl rayonlarında gedən şiddətli döyüşlərdə iştirak edir, son döyüşü isə Laçının Xanalılar kəndində olur. Döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olur. 38 illik ömrünün 21 ilini vətənə xidmət edir və 21 illik vətənə qüsursuz xidməti ilə bağlı Vətən müharibəsindən əvvəl medal ilə təltif olunur.

### QAN QOXUYAN TORPAQLARDA AYAQ AÇANLAR VƏTƏN MÜQƏDDƏSLİYİNİ DAHA DƏRİNDƏN ANLAYACAQLAR

Bəli, işğal altında olan torpaqlarımızın azad olunmasında qəhrəmancasına vuruşur. Xocalı faciəsinin, Ağdaban, Başlıbel qətliamlarını yaşamış bir xalqın intiqam, qisas harayı onu rahat buraxmırdı. Mübarizlər yetirən Azərbaycan müqəddəs torpaqlarımızın işğaldan azad olunması yolunda Ali Baş Komandanını əmrini gözləyirdilər. Hamı Prezidentin ətrafında bir yumruq olaraq birləşdilər. Sonu Zəfər olan işıqlı bir yol bizi gözləyirdi. Minlərlə Vətən oğlu şəhid oldu, qazi mərtəbəsinə yüksəldi. Ərənlik, şücaət göstərdilər. Şuşa cəngavərləri, Şuşa qartalları, hər qarışın işğaldan azad olunmasında qanı tökülən oğullar. Qisas aldınız, sizin də qisasınız alındı. Ruhunuz şad olsun, igid Vətən oğlulları, Azərbaycan sizi heç vaxt unutmayacaq. Ruslan Tağıyev! Bu isim, soyad bizlərə qəhrəmanlıq məktəbində bir salnamə yazmış Vətən oğlu haqqında hər şeyi demiş olur. Düşmənin üstünə gedən və ona həddini bildirən Ruslanların ərənliyi ilə bu gün torpaqlarımız əzəli sakinlərinə qucaq açıb. Bu torpaqlarda yüzlərlə, minlərlə Ruslanlar boy atacaq. Qan qoxuyan torpaqlarda ayaq açanlar vətən müqəddəsliyini daha dərindən anlayacaqlar. Biləcəklər ki, bu torpağı əkib-becərmək, qurub-yaratmaq, ona nəfəs verib nəfəs almaq gərəkdir. onu qorumaq gərəkdir. Vətən onlarla qürur duyur. Əsrlərin yaddaşına köçən Ruslanları ilə.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Xarici fondların arxasında erməni lobbisinə bağlı strukturlar dayanır




### Bu gün xarici ölkələrdə "siyasi mühacir" adı altında düşmən mövqeyini müdafiə edən, sapı özümüzdən olan baltaların arxasında Azərbaycandan çıxarılan xarici fondların mərkəzləri dayanır

Vaxtilə ölkəmizdə mövcud olmuş müxtəlif adda xarici fondların bu və ya digər şəkildə, eləcə də məqsədli qaydada anti-Azərbaycan xarakterli fəaliyyət göstərmələri kimsəyə sirr deyil. Belə fondlar əsasən ölkəmizdə maraqları olan dövlətlərin gizli casus şəbəkələri qismində siyasi partiyalarla, QHT-lərlə əməkdaşlıqlar qurur, müqabilində isə "layihələr" adı altında qrantlar ayırmaqla özlərinə cəlb edirdilər. Bu kimi fondlar içində ən çox seçiləni isə amerikalı milyarder Corc Sorosun Bakıda açdığı eyniadlı Soros Fondu idi. Həmin qurumla paralel olaraq digər Qərb fondları da zaman-zaman müştərək fəaliyyət göstərməklə Azərbaycandakı ictimai-siyasi sabitliyi pozmaq üzərində aldıqları sifarişlərini müxalifət partiyaları və siyasiləşmiş QHT-lər vasitəsi ilə həyata keçirməyə cəhd göstəriblər. İcazəsiz mitinq və küçə yürüşlərindən tutmuş digər qaragüruhçu vasitələri mexanizm olaraq işlədən daxili və xarici qüvvələrin köklü məqsədləri anti-Azərbaycan dairələrinin fəaliyyətlərini genişləndirməkdən ibarət idi. Məhz bu kimi faktlar ifşa edildikdən sonra belə təşkilatların Azərbaycandakı fəaliyyətlərinə qadağa qoyuldu.

### Novella Cəfəroğlu: "Ölkədən çıxarılmış xarici fondlardan maliyyələşənlər bu gün ermənidən daha kəskin çıxışlar edirlər"

Bu gün xarici ölkələrdə "siyasi mühacir" adı altında düşmən mövqeyini müdafiə edən, sapı özümüzdən olan baltaların da arxasında Azərbaycandan çıxarılan xarici fondların mərkəzləri dayanırlar. Maraqlıdır ki, hətta belə fondların rəhbər strukturlarında erməni lobbisinin dayaqları da mövcuddur. Yeri gəlmişkən, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin keçirilən iclasında Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu mövzu ilə bağlı çıxışında qeyd edib: "Ölkədən çıxarılmış xarici fondlardan maliyyələşənlər bu gün ermənidən daha kəskin çıxışlar edirlər".

Görünən isə budur ki, xüsusilə dünyada baş verən qlobal siyasi-ictimai kataklizmlər fonunda bədxah qüvvələr əl-qol açmağa, fəallaşmağa cəhdlər göstərirlər. Söz yox ki, onlara bu müstəvidə "impuls" verənlər də xarici ölkələrdəki ermənipərəst dairələrdirlər. Bu baxımdan, mövcud məsələdə ictimai nəzarət mexanizmləri gücləndirilməli, vətəndaş mövqeyi daha fəallaşmalıdır ki, belə bədxah qüvvələrin məqsədləri ayaq açıb, yürüməsin. O cümlədən, əlbəttə ki, qanunların sərtləşdirilməsinə də ciddi ehtiyac duyulmaqdadır.

***Rövşən RƏSULOV***

ANALİTİK

# Şəhərim silir göz yaşlarını...

MƏNSUR ŞEİR

2020-ci il sentyabrın 27-dən noyabrın 19-dək Naxçıvan tamamilə blokada şəraitində qaldı. 54 gün bu torpağın məxsus olduğu ölkə, paytaxt Bakı ilə heç bir əlaqəsi olmadı. 44 gündə təyyarə yalnız Naxçıvana şəhid gətirəndə göründü göy üzündə. Naxçıvan şəhid övladlarına qollarını açanda, onları bağrına basanda göründü təyyarələr. 9 dəfə 44 gündə, 10 dəfə müharibədən sonra, 19 Bakı-Naxçıvan reysi şəhid övladlarımızı gətirdi Naxçıvana. 2020-ci ilin 2 noyabrında şəhid balalarımız Lətif, Əli, Murad Namiq, İbrahim, Elnur, Ramazan, Nihad, Qəşəm, Tağını gətirən təyyarə Naxçıvan şəhərinə enərkən yazmışdım bu sətirləri...



Səhər almışdım xəbəri, bu gün şəhid gələcəkdi şəhərimə. Soluxmuşdu çöhrəsi balası şəhid olan ana kimi, əyilmişdi qəddi şəhidini gözləyən bir ata kimi şəhərimin... Ta səhərdən saçlarını tel-tel edib şəhidin yollarına səpirdi o. Dili yoxdu, şəhərimin, laldı bu gün, hayqırmağa çatmır gücü. Nə az, nə çox, düz 10 övladına qol açıb, bağrına basacaqdı şəhərim. Səssiz, sükutla gözləyirdi yollarını. Gözlərində gilələnən göz yaşıyla, köksündəki yanğısıyla, elə bu gün əl uzadıb ətrafında zirvələri səma ilə öpüşən, uca, hündür dağlarından endirdiyi dağ-düyünlə gözləyirdi şəhidini, şəhərim.

Torpaq ətri bürümüşdü şəhərimi. Şərur, Sədərək, Ordubad, Culfada və Şahbuzdakı, bir də minilliklər şəhəri bu şəhərdəki məzarlardan xəfifcə bir külək əsir, bu ətri gətirirdi, gətirirdi... Torpaq uğrunda canlarından keçənlərin qeyrət, hünər qoxusunu gətirirdi. Şəhərimsə sükutla bu ətri sinəsinə çəkir, bu ətri damcı-damcı gözlərindən axan yaşla şəhidini qarşılayan yollarına səpələyirdi...

Bir az sonra bu sükutu şəhərimin göylərində şimşəkləşən təyyarənin səsi pozur. Yarır bu səs şəhərimin sükutunu. Məğrur-məğrur seyr eləyir şəhərim: bu sükutu tar-mar edən, göy üzündə şəhidimin qüruruyla rəqs eyləyən təyyarənin süzüşünü. Göz yaşı- qürur, acı-şirin, kədər-sevinc...ətrafdakı insanların üzündəki cizgilərdir bu əksliklər. Axıdılan göz yaşını qürur silir. İçlərdəki acıları- Qarabağın 30 illik qara rəngin al qanıyla şəhid silir... Qarabağın Şuşasının, Xankəndinin, ətrafdakı Füzulinin, Cəbrayılın, Qubadlının, Xudafərin körpüsünün həsrətini vüsal edən şəhid silir... 30 ilin hicranının vüsalını Vətənimin şəhidləri şirin edir...

Üzlərdəki cizgiyə bax... ilk dəfədir insanların üzlərində həm kədəri, həm sevinci eyni anda izləyirəm. Səbəb budur: qaçqınlığın, köçkünlüyün kədərini torpağımın igidləri bayrağımla, bir də ki, öz al qanıyla sevinclərə çevirir. Bu üzdəndir ataların, anaların, azərbaycanlı olanların bir üzünün ağlaması, o birinin gülməsi... Elə bu an gülümsəyir şəhərim də, qürur duyur şəhərim də. Əzizinin yoxluğunda şəhidinin varlığıyla, şəhidinin varlığında torpağının, Vətəninin varlığıyla qürur duyur... Şəhərim də silir gözünün yaşını, ətrafdakı insanlar tək. Qürur duyur onlar kimi şəhidiylə, fəxr eləyir yetirdiyi-bitirdiyi igidiylə və onların hər biriylə... hünəriylə, mərdliyiylə və bir də ki, Qarabağı xilası ilə...

***Mətanət Məmmədova***



# Vitali Arkov: ”Soçi görüşü Azərbaycanın diplomatik qələbəsi kimi şərh oluna bilər”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" çərçivəsində hazırlanıb.*

***Xəbər verdiyimiz kimi, oktyabrın 31-də Soçidə Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında Ermənistan-Azərbaycan nizamlanması üzrə üçtərəfli danışıqlar baş tutub. Bunlar 26 noyabr 2021-ci ildən bu formatda ilk rəsmi danışıqlardır.***

## Ekspert: Paşinyanın Soçi görüşündə irəli sürməyə çalışdığı bəndlərin heç biri yekun bəyanatda yer almadı

Danışıqlar Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il noyabrın 9-da üçtərəfli bəyanatın imzalanmasının ikinci ildönümü ərəfəsində, eləcə də Qərb ölkələrinin Moskvanı sıxışdırıb sıxışdırmaq üçün ən fəal cəhdləri fonunda baş tutub. Daha doğrusu, paralel aparılan danışıqlardan, eləcə də Qərbin Ermənistan vasitəsilə regiona fiziki olaraq daxil olmaq cəhdlərindən və Aİ-nin müşahidəçilərinin artıq Ermənistana gəlməsindən sonra.

Son həftələrdə rəsmi İrəvan sözün əsl mənasında dayanmadan Rusiyanı müttəfiq və KTMT üzvü olaraq Ermənistan-Azərbaycan sərhədində sentyabrdakı eskalasiyaya münasibətdə tənqid edib.

Soçidə Vladimir Putin üçtərəfli sammit öncəsi həmkarlarının hər biri ilə uzunmüddətli danışıqlar aparıb. Nikol Paşinyan üçtərəfli görüşdən əvvəl Vladimir Putinlə ikitərəfli görüşdə rəsmi İrəvanın Moskvanın Ermənistan və Azərbaycan tərəflərinə çatdırdığı və sülh müqaviləsinin imzalanması üçün əsas götürülməsi təklif olunan 15 prinsiplə razılaşdığını bildirib.




Azərbaycan prezidenti İlham Əliyev Rusiya lideri ilə ikitərəfli görüşdə qeyd edib ki, Bakı İrəvana sülh müqaviləsinin əsasını təşkil etməli olan 5 prinsip təqdim edib. O, həmçinin Qarabağ məsələsinin 2 il əvvəl həll olunduğunu bir daha vurğulayıb.

Üçtərəfli danışıqlardan sonra Rusiya prezidenti bəyan edib ki, "hər şey razılaşdırılmayıb, bəzi şeylər əvvəllər mütəxəssislər səviyyəsində işlənmiş mətndən çıxarılmalı idi". Bunun fonunda Ermənistan müxalifəti mitinq keçirməkdən və parlamentin iclaslarında iştirakdan imtina etdikdən bir neçə ay sonra ”ayılaraq” noyabrın 5-də mitinq elan edib.

Politoloq, PolitRUS portalının rəhbəri Vitali Arkov ”Moskva-Baku” portalına nizamlanmanın perspektivləri baxımından Soçi görüşünün əhəmiyyətini şərh edib. Ekspertin fikirlərini oxucularımıza təqdim edirik.

- Qərbin Rusiyanı Ermənistan-Azərbaycan nizamlanması prosesindən sıxışdırıb çıxarmaq, vasitəçiliyi oğurlamaq cəhdləri fonunda görüş böyük əhəmiyyət kəsb edirdi. Bəzi Qərb dövlətləri İrəvanı sülh müqaviləsi ilə razılaşmamağa təhrik etməyə çalışırlar. Qafqazda sülh prosesində iştirak Qərbin regiona daxil olması üçün sadəcə bir bəhanədir. İndi o, israrla Rusiya Federasiyasını Ermənistandan sıxışdırmağa çalışır və Ermənistan təslim olur. Avropa əsgərlərinin Ermənistanda müşahidəçi adı altında necə peyda olduğunu görürük.

Rusiya Federasiyası həmişə Cənubi Qafqazda əsas vasitəçi və sülhməramlı rolunu oynayıb və etməkdə davam edir. Məhz Moskvanın sayəsində 2 il əvvəl müharibə dayandırıldı və Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində addımlar atıldı.

Belə bir görüş Rusiyanın vasitəçi imici üçün böyük əhəmiyyət kəsb edirdi. Üstəlik, qarşıda Əliyevlə Paşinyan arasında yeni danışıqlar var- noyabrda Brüsseldə. Avropa Birliyi həmişə təqibçi rolundadır. Bütün ən mühüm sənədlər Moskvanın iştirakı ilə imzalanıb.

Rusiya prezidenti deyib ki, bu yaxınlarda Astanada liderlərin üçtərəfli görüşü keçirilib. Bu barədə ictimaiyyətə geniş məlumat verilməyib. Mən ehtimal edirəm ki, orada yalnız sülh müqaviləsi və Rusiyanın bu sənədin əsasını götürməyi təklif etdiyi prinsiplər üzrə ilkin müzakirələr gedib.

Soçi danışıqları nəticəsində İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra dördüncü bəyanat imzalandı ki, bu da tərəflərin Rusiyanın vasitəçilik rolunun tanınmasını və sülh müqaviləsi üzərində işləməyə hazır olduğunu bir daha vurğulayır.

Qərb rəsmilərinin hər şeyi altüst etmək, Moskvanı guya öz məqsədlərini güdməkdə günahlandırmaq cəhdlərinə baxmayaraq danışıqlarda əsl vasitəçi Rusiyadır. İlərdir üçtərəfli bəyanatların bəndlərinin həyata keçirilməsi istiqamətində fəal və nəticəyönümlü iş aparır. Bu yaxınlarda Rusiyanın kifayət qədər böyük nümayəndə heyəti Bakıda oldu. İlham Əliyev öz növbəsində Rusiya Baş nazirinin iki müavinini- Overçuku və Belousovu qəbul edib. Hesab edirəm ki, bütün bunlar başqa məsələlərlə yanaşı, konkret nizamlanma məsələlərinin həlli ilə bağlı idi. Problem ondadır ki, əgər indi Rusiya, Azərbaycan və Ermənistan liderləri Soçidə gələcək sülh müqaviləsinin əsasını imzalasalar belə, Paşinyan yenə də razılaşmaları ardıcıl olaraq pozacaqdı. O belə də edəcək. Qərb kimi o da Rusiyanı nizamlanmadan çıxarmağa çalışacaq.

İndi biz gördük ki, Paşinyanın son vaxtlar ardıcıl apardığı tamamilə qərbyönümlü xəttdən, Moskvanın ardıcıl tənqidindən, Putinin Valday çıxışından sonra, indi Soçidə Ermənistanın baş naziri Moskvanın prinsiplərinə hazır olduğunu deyib. Paşinyan ondan eşitmək istədiklərini deyən adamdır. Moskvada bir şey deyir, Brüsseldə başqa, İrəvanda başqa. İndi o, təbii ki, Putinə göstərmək istəyirdi ki, yox, biz Moskvanın yanındayıq. Və paralel olaraq o, Ermənistanın daxili auditoriyasının ondan eşitmək istədiyi tezisləri səsləndirdi- Azərbaycan ”əsirləri qaytarmalıdır”, qoşunlarını çıxarmalıdır və sair. Mən soruşmaq istərdim ki, Ermənistan 2 ildir ki, üçtərəfli bəyanatın Qarabağdan erməni birləşmələrinin çıxarılması ilə bağlı bəndini yerinə yetirmirsə, Paşinyan niyə Azərbaycan qoşunlarının çıxarılmasında bu qədər israrlıdır? Burada məntiq yoxdur, sadəcə manipulyasiya var. Paşinyan müxtəlif fəndlərdən istifadə edərək bir neçə stulda oturmağa çalışır. Qərbin əlində alət olan dövlətlərin başına gələnləri görürük.

Paşinyan üçtərəfli bəyanat imzalanandan iki ildir ki, onun məqamlarını özünəməxsus şəkildə şərh etməyə çalışır. Putin və Əliyev üçün bu adamla işləməyin nə qədər çətin olduğunu başa düşürəm. O, pozulmuş bir yeniyetmə kimi görünür.

Əsas odur ki, Paşinyan yaxın vaxtlarda sülh müqaviləsi layihəsini imzalamalıdır. Çünki bütün bu müddət ərzində o, müqavilə imzalandıqdan sonra işlək vəziyyətdə həll oluna biləcək xırda məqamlara diqqət yetirməyə çalışır. Soçi görüşü sıçrayışa çevrilməsə də, Moskvanın əsas vasitəçi rolunu və Rusiya Federasiyasının vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında yekun normallaşmaya doğru irəliləməyə hazır olduğunu bir daha təsdiqlədi.

Qarabağın statusu ilə bağlı isə bəyanatda heç nə qeyd olunmayıb. Əgər bu məsələ gələcək üçün təxirə salınarsa, şübhəsiz ki, rəsmi İrəvan bununla manipulyasiya etməkdə davam edəcək. İstənilən halda Qarabağın qalan hissəsi tam Azərbaycanın nəzarəti altına qayıdacaq.

Ümumiyyətlə, görüşün nəticələri ənənəvi olaraq daha çox Azərbaycan diplomatiyasının qələbəsi kimi şərh oluna bilər, çünki Paşinyanın Vladimir Putinlə ikitərəfli görüşündə Ermənistan gündəmində irəli sürməyə çalışdığı bəndlərin heç biri yekun bəyanatda yer almayıb.

*Elçin Bayramlı*

SON SƏHİFƏ
Səs
3 noyabr
2022-ci il

# Apteklərdə niyə dərman tapılmır ?



***"Çox cüzi miqdarda dərmanlar var ki, onlar Azərbaycanda istehsal olunur. Yəni biz dərmanların əksəriyyətini digər ölkələrdən alırıq". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Kamilə Əliyeva bildirib.***

Onun sözlərinə görə, bu gün də dərman aldığımız bəzi dövlətlərdən dərmanların gəlməsi ilə bağlı müəyyən problemlər və gecikmələr baş verir: "Məsələn, Rusiya və Ukrayna arasında gedən müharibə ilə əlaqədar olaraq, həmin ölkələrdən aldığımız dərmanların hazırda idxal prosesində problemlər müşahidə olunur.

Amma bir məsələ var ki, həkimlər xəstələrə dərman adları ilə yox, onun tərkibinə görə yazmalıdırlar. Çünki eyni tərkibdə olan dərmanlar müxtəlif ölkələr tərəfindən müxtəlif adlarda istehsal olunurlar. Buna görə də həkimlər də xəstələrə dərman yazdıqda tərkibinə görə yazmalıdırlar ki, bir dövlətin istehsal etdiyini tapmadıqda digər dövlətin istehsal etdiyi dərmanı tapmaq mümkün olsun. Mənə elə gəlir çətinliklər də bu məsələlərlə əlaqədardır. İnsanların əksəriyyəti artıq hansı adda dərmanı bu günə qədər alıbsa, o adda da dərman axtarırlar. Bu zaman da artıq müəyyən çətinliklər, gecikmələr səbəbi ilə ölkəmizə gətirilə bilməyən dərmanları tapmaq olmur".

*Səbinə Hüseynli*

# Hamilə xanımlar necə qidalanmalıdır?




***"Hamilə xanımlar qidalanmalarına mütləq şəkildə diqqət etməlidirlər. Çünki nəinki hamiləlik, hətta hamiləlikdən 70 gün əvvəl belə qəbul edilən qidalar dölün inkişafında öz rolunu göstərir". Bu sözləri SİA -ya açıqlamasında sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova bildirib.***

Onun sözlərinə görə, bu səbəbdən də hamilələr mütləq şəkildə hər zaman sağlam qidalanmalı və mənşəyi bəlli olan qidalardan istifadə etməlidirlər:

"Hamiləlik dönəmində mənşəyi bəlli olmayan, evdən qıraqda hansı şəkildə bişirilib, saxlanıldığı məlum olmayan qidalar risk qrupuna daxil olur. Eyni zamanda həm ananın, həm də körpənin sağlamlığını risk altına atır. Xüsusilə də dönərlərdir ki, bişirilmə üsulu və uzun müddət açıq havada qalması bu ətlərdən insana virus keçməsinə səbəb olur. Buna görə də hamiləlik dönəmində bu kimi qidalardan mütləq şəkildə uzaq durmaq lazımdır.

Yaxşı olar ki, hamilə xanımlar gün ərzində 1-2 stəkan çay və yaxud da əgər asılılıq varsa, bir fincan qəhvə içə bilər. Lakin gündəlik istifadə də kafein tərkibli qidaların qəbul olunması məsləhət görülmür. Eyni zamanda spirtli içkilərdən tamamilə uzaq durmaq lazımdır. Bu cür içkilər də hamiləlik dönəmində çox zərərli hesab olunur. Çünki bu kimi içkilərin qəbulu dölün zəhərlənməsilə belə nəticələnə bilər. Hətta beynin inkişafına da zərərli olduğundan tamamilə spirtli içkiləri həmin dönəmdə həyatımızdan çıxarmalıyıq.

Gündəlik qidalanmalarında hamilə xanımlar şəkərdən də uzaq durmalıdırlar. Çünki şəkər xüsusilə də şəkərli, qazlı içkilər orqanizmdə həm spazmlara səbəb olur, həm də mədə-bağırsaq sisteminin pozulmasına gətirib çıxarır.

Balıq çox faydalıdır, lakin diqqət etmək lazımdır ki, iri çəkili və böyük balıqlardan çox istifadə olunmasın. Çünki həmin balıqların tərkibində civə həddindən artıq çoxdur. Civə isə ağır metal olduğu üçün dölün inkişafına zərər verir. Yaxşı olar ki, kiçik balıqlardan istifadə olunsun. Xüsusilə də çay balıqlarından istifadə etmək daha yaxşıdır.

Digər qidalardan isə həftədə iki-üç dəfə ət yeyilməsi məsləhət görülür. Əgər allergiya problemi yoxdursa, mütəmadi olaraq çərəzlərdən istifadə etmək lazımdır.

Eyni zamanda təzə meyvə-tərəvəzlər, süd və süd məhsulları və bol su qəbulu da olduqca vacibdir.

Bir çox hallarda hamilələrin idmanla məşğul olub-olmaması da sual yaradır. Əgər düzgün şəkildə, peşəkarların məsləhəti ilə idman edilirsə təbii ki, bu zaman edilən idman orqanizm üçün çox xeyirli olur. Xüsusilə də üzgüçülük, rəqs, hamilələr üçün yoqa və platesdən istifadə edilə bilər".

*Səbinə Hüseynli*

# Göyçayda 8 yaşlı uşağı maşın vurub öldürüb



**Göyçayda avtomobil 8 yaşlı uşağı vuraraq öldürüb. SİA xəbər verir ki, Elçin Hüseynov idarə etdiyi "VAZ-2106" markalı avtomobillə Göyçay şəhəri ərazisində hərəkətdə olarkən yolu keçən piyada, 2014-cü il təvəllüdlü N.Qurbanzadəni vurub. Xəstəxanaya yerləşdirilən azyaşlı orada ölüb. Faktla bağlı rayon polis şöbəsində araşdırma aparılır.**

# Məşhur müğənninin rəqsini tənqid etdilər



***Məşhur müğənni Ajda Pekkan sosial şəbəkə istifadəçilərinin onun rəqsini tənqid etməsindən sonra artıq rəqs etməyəcəyini bildirib. SİA Türkiyə mediasına istinadən xəbər verir ki, o, "Daha rəqs etməyəcəm. Vallah ürəyimi qırdılar" fikirlərini səsləndirib.***

76 yaşlı Pekkan rəqsinə gələn şərhlərinə "Daha rəqs etməyəcəyəm. Yadplanetli kimi rəqsi var, necə rəqs edir" deyirlər. Vallah, mənim ürəyimi qırdılar" cavabını verib. Qeyd edək ki, superstarın rəqs etdiyi anlar sosial mediaya düşüb. Bir çox sosial media istifadəçisi Pekkanın enerjisinə heyran olduqlarını bildirsə də, bəziləri sənətçinin rəqsini tənqid edib.

## ELAN

**Azərbaycan Respublikasının İqtisadiyyat nazirliyi yanında Dövlət Əmlak Xidməti tərəfindən verilmiş Qusar-Aqrotexservis ASC -nin Emissiya prospekti itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**